> Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyi, yaxud yaxşılıq etməyi və ya insanlar arasında sülh yaratmağı əmr edən kimsənin söhbətindədir. Allahın razılığını qazanmaq üçün belə işlər görən kimsəyə (axirətdə) böyük mükafat verəcəyik!
>
> *(Qurani-Kərim, ən-Nisa, 114)*

## Xocalı faciəsi qurbanlarının xatirəsi anılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar fevralın 26-da anma mərasimində iştirak ediblər. Prezident İlham Əliyev abidənin önünə əklil qoyaraq, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirib. Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoyublar. Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak ediblər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzüblər.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (295) / FEVRAL 2016-cı il





**"Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli"**

səh. 4

Mübariz Qurbanlı: "Azərbaycan multikultural modeli dünyaya nümunədir"

səh. 6

**"Müsəlman öz günahsız bacı və qardaşlarına qarşı silah işlətməz"**

səh. 8

BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR



**GƏNCƏ**

səh. 12-13



**Azərbaycanın din xadimləri Xocalı soyqırımı ilə bağlı beynəlxalq təşkilatlara müraciət ediblər**

səh. 14

# Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduğu bu məbəd məhz dövlətimizin başçısının Sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.



Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə respublika ictimaiyyətinin nümayəndələri və din xadimləri ilə görüşüb.

Mərasim müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlayıb.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi:**

- Hörmətli Şeyx həzrətləri, hörmətli din xadimləri, mərasim iştirakçıları.

"İmamzadə" dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılışı münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bugünkü mərasimdə ölkəmizin hər bir bölgəsindən din xadimləri, nümayəndələr iştirak edirlər. Onları mən dəvət etmişəm. Çünki "İmamzadə" abidəsi bizim ümumxalq sərvətimizdir. "İmamzadə" bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsidir. Azərbaycan xalqı əsrlər boyu ictimai-siyasi quruluşdan asılı olmayaraq bu abidəni qorumuşdur, qoruyur və bundan sonra da qoruyacaqdır. "İmamzadə" bizim milli sərvətimizdir. Bir neçə il bundan əvvəl dini mədəniyyət abidəsinin yenidən qurulması və əsaslı təmiri üçün mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır, işlər başlanmışdır və bu işlər bu gün göz qabağındadır. Yeni məscid, mərasim zalı, inzibati binalar tikilmişdir, ərazi genişləndirilmişdir. Bu, Azərbaycan dövlətinin öz milli, dini dəyərlərinə göstərdiyi münasibətdir.

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Müstəqillik dövründə 2 minə yaxın məscid, digər dinlərin məbədləri tikilmişdir. Pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilmişdir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. 2014-cü ildə ölkəmizin ən böyük məscidi – Heydər Məscidi tikilmişdir ki, bu da müsəlman aləminin mühüm tarixi, memarlıq və dini abidəsidir.

səh. 2

# Prezident İlham Əliyev Gəncənin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar Sərəncam imzalayıb

Azərbaycan Prezidenti İlham Əliyev Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılıb ki, Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər üzrə nəzərdə tutulmuş vəsait hesabına Gəncə Şəhər İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat ayırsın.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər hazırlayıb həyata keçirməli, habelə Gəncə şəhərində keçirilməsi nəzərdə tutulan tədbirlərin təşkilinə kömək göstərməlidirlər.

Prezident yanında Gənclər Fonduna tövsiyə edilib ki, 2016-cı ildə keçirəcəyi maliyyə yardımı müsabiqələrində Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə bağlı layihələri prioritet istiqamətlərdən biri kimi nəzərdə tutsun.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Dövlət İnformasiya Agentliyi isə Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə bağlı keçiriləcək tədbirlərin işıqlandırılmasını təmin etməlidir.

# Prezident İlham Əliyev Gəncədə "İmamzadə"



Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli-mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik. Əfsuslar olsun ki, müsəlman aləmində son vaxtlar vəziyyət o qədər də ürəkaçan deyil. Ənənəvi ziddiyyətlərə yeni ziddiyyətlər, yeni qarşıdurmalar əlavə olunur. Bu, bizi çox narahat edir.

Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə onlarla tədbir keçirilmişdir. Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu, bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmamışdır. Kiçik anlaşılmazlıq belə olmamışdır, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır.

Biz bu istiqamətdə səylərimizi göstərəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan müsəlman aləmində çox böyük nüfuza malik olan ölkədir. Biz bunu təkcə iqtisadi və sosial inkişafımıza görə əldə etməmişik. O cümlədən dinlərarası münasibətlərdə oynadığımız rol bütün müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Mənim müsəlman ölkələrinə səfərlərim, müsəlman ölkələrinin rəhbərlərinin Azərbaycana səfərləri dediyimi bir daha təsdiq edir.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir. Qeyd etdiyim kimi, Azərbaycanda pravoslav, katolik, alban kilsələri, sinaqoqlar tikilir, təmir edilir. Azərbaycanda dinlərarası münasibətlər çox sağlam zəmində həllini tapır. Biz dünyada bu istiqamətdə də öz rolumuzu oynayırıq. Azərbaycanda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Ənənəvi humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları keçirilir. Bu il isə Azərbaycanda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir ki, bu, dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün ən mötəbər forumdur. Bu il bu şərəfli missiyanı Azərbaycan öz üzərinə götürür.

Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə, ölkəmizin uğurlu inkişafı təmin edilsin, Azərbaycanda yaşayan bütün insanlar özlərini rahat hiss etsinlər, bölgədə təhlükəsizlik tədbirləri gücləndirilsin, dünya miqyasında Azərbaycanın rolu və bizə olan hörmət, inam, rəğbət daha da artsın. Biz bunu görürük və eyni zamanda mən tam əminəm ki, əgər dünyada bundan sonra da dini zəmində qarşıdurmalar davam edərsə, bu, böyük fəlakətə gətirib çıxaracaqdır. Biz artıq hər il yeni münaqişə ocaqlarını, yeni problemli yerləri görürük. Bu gün daha çox miqrantlar böhranından danışırlar. Mən dövlət başçısı kimi bu məsələ ilə bağlı ölkəmizin mövqeyini dəfələrlə ifadə etmişəm və hesab edirəm ki, belə də olmalıdır. Biz bu məsələyə biganə qala bilmərik. Bu gün xarici müdaxilədən əziyyət çəkən insanlar öz canlarını, ailələrinin canlarını qurtarmaq üçün məcburi köçkün vəziyyətinə düşmüşlər. Onlar sadəcə olaraq ölməmək üçün bu əzablara qatlaşıb, böyük təhlükələrlə üzləşib Avropaya üz tuturlar. Yolda da onların çoxu ya dənizdə batır, ya başqa yerdə həlak olur. Biz görürük ki, bunlara qarşı münasibət heç də Avropanın bəyan etdiyi prinsiplərə uyğun gəlmir. Bu adamların heç bir günahı yoxdur. Əgər onların ölkələrinə xaricdən müdaxilə olunmasaydı, onlar öz ölkələrində yaşayardılar. Onlar - yaxınlarını itirmiş, qaçqın-köçkün vəziyyətinə düşmüş milyonlarla insan indi sadəcə olaraq öz canını xilas etmək istəyir. Onlara qarşı bəzi hallarda çox nalayiq hərəkətlər edilir. Onların şəxsiyyəti alçaldılır. Onlar haqqında artıq dünya mediasında çox mənfi rəy formalaşır.

Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. O cümlədən bu yaxınlarda Suriya böhranı ilə bağlı Londonda keçirilmiş konfransda çıxış edərkən demişəm ki, Azərbaycan 1990-cı illərin əvvəllərində humanitar fəlakətlə üzləşmişdi. Bir milyon insan erməni işğalı nəticəsində öz yerindən didərgin düşmüşdür. O vaxt bizim nə imkanımız, nə pulumuz var idi, iqtisadiyyat tamamilə dağılmış vəziyyətdə idi. Biz demək olar ki, təkbaşına o böhranın öhdəsindən gəlirdik. Düzdür, o vaxt - 2010-cu ilə qədər beynəlxalq donor təşkilatları bizə yardımlar edirdilər. Amma təbii ki, o yardımlar 1 milyon insanın tələbatını ödəyə bilməzdi. Yəni, biz bunu təkbaşına etmişik, bu sınaqdan çıxmışıq. Bu gün də köçkünlərin məşğulluğu, yaşayış şəraitinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Doxsana yaxın qəsəbə salınıb, 250 minə yaxın köçkün yeni gözəl mənzillərə, evlərə köçüb. Ona görə, bəzi hallarda Yaxın Şərqdən köç edən miqrantlara olan belə münasibət başadüşülən deyil.

Bunun digər tərəfi də var. Bu barədə də mən demişəm, bir daha demək istəyirəm. Belə vəziyyət və xüsusilə Qərb mediasında miqrantlarla bağlı gedən birtərəfli antitəbliğat ona gətirib çıxarır ki, Avropada radikal partiyaların gücü, onlara səs verən əhalinin sayı artır. Onlar getdikcə daha çox siyasi dəstək alırlar. Əgər bu, belə davam edərsə, bir neçə ildən sonra onlar öz ölkələrində hakimiyyətə gələ bilərlər. Belə olan halda necə olacaq? Belə olan halda dinlərarası münasibətlər necə tənzimlənəcək? Bu gün Avropanın, demək olar, bütün ölkələrinin rəsmi mövqeyi təbii ki, müsbətdir. Avropa hökumətləri, onların bəziləri çalışır ki, miqrantlara layiqli münasibət göstərilsin. Biz bunu da görürük və təqdirlə qarşılayırıq. Ancaq bir daha demək istəyirəm, əgər dini zəmində bu qarşıdurma və təbliğat davam edərsə, gələcəkdə biz çox böyük problemlərlə üzləşəcəyik.

Azərbaycan, əlbəttə ki, dünya miqyasında o qədər də böyük ölkə deyil. Ancaq bizim sözümüzün böyük mənası və çəkisi var. Ona görə, şəxsən mən bütün bu məsələlərlə bağlı Azərbaycanın mövqeyini dünya birliyinə çatdıranda, eyni zamanda bunun həll yollarını da göstərirəm. Həll yolları da Azərbaycan nümunəsidir. Nə üçün bu gün bəzi ölkələrdə deyirlər ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizmin gələcəyi yoxdur? Bu, səhv bir fikirdir. Baxın, Azərbaycanda multikulturalizm yaşayır. Baxın, o qədər də böyük müstəqillik tarixi olmayan, böyük çətinliklərlə üzləşən və işğala məruz qalan, heç vaxt bu işğalçının dini mənsubiyyətinə işarə vurmayan ölkə görün, bu məsələləri necə tənzimləyir. Nəyə görə? Çünki dövlət siyasəti aparılır. Bir daha demək istəyirəm, dövlət siyasəti əsas rol oynayır. Digər tərəfdən, bizim din xadimlərimiz bu istiqamətdə çox böyük rol oynayırlar. Xüsusilə şeyx həzrətlərinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. O, həm ölkə daxilində, həm MDB məkanında, dünyada Azərbaycanı tolerant, bütün dinlərin birgə yaşadığı ölkə kimi təqdim edir. Bizim digər din xadimlərimiz, - onlar burada əyləşiblər, - bu gün çıxış edəcəklər. Mən onların fəaliyyətini yüksək qiymətləndirirəm. Onların da çoxsaylı xarici səfərləri olur. Bu səfərlərdə də onlar sadəcə olaraq Azərbaycan reallıqları haqqında danışırlar. Yəni, bu, əsas amildir. Eyni zamanda, Azərbaycanın bu modelinin təməlində əlbəttə ki, ictimai fikir də dayanır.



# dini kompleksində yaradılan şəraitlə tanış olub



Azərbaycan ictimaiyyəti də bu siyasəti tam dəstəkləyir.

Ona görə biz bütün dini bayramları bir yerdə qeyd edirik. Bütün mərasimlərdə bir yerdə iştirak edirik. Bu gün burada pravoslav, yəhudi, katolik icmalarının rəhbərləri öz sözlərini deyəcəklər. Bu, təbiidir, bu, belə olmalıdır. Ancaq əfsuslar olsun ki, bəzi hallarda bəzi ölkələrdə biz bunu görmürük.

Biz öz yolumuzla gedəcəyik. Bu gün Azərbaycan istənilən istiqamət üzrə öz inkişaf modelini ortaya qoyur və gözəl nəticələr də bu modelin nə qədər düzgün olduğunu sübut edir. Biz multikulturalizmlə bağlı əlavə tədbirlər də görəcəyik. Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Keçən il Azərbaycanda Avropa Oyunları keçirilib, gələn il isə İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, sadəcə olaraq İslam və Avropa ölkələri idmançılarının yarışı deyil, bu, bizim ümumi, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz öz məsuliyyətimizi belə qəbul edirik, belə başa düşürük. Biz bu məsuliyyəti ilk növbədə, dövlətimizin, xalqımızın mənafeyi, digər tərəfdən bölgədə sabitliyin bərpası üçün daşıyacağıq. Çünki əgər bölgədə sabitlik bərpa olunmasa, istər-istəməz bu, bizə də təsir edə bilər. Siz də, indi mətbuatı izləyən insanlar, bizim ictimaiyyət də bilir ki, Azərbaycanı müxtəlif düşərgələrə, bizə aid olmayan işlərə cəlb etmək istəyirlər. Biz öz yolumuzla gedirik. Biz heç bir başqa ölkənin daxili işinə qarışmırıq və belə fikrimiz də yoxdur. Heç bir ölkəyə imkan vermirik ki, daxili işimizə qarışsın və imkan verməyəcəyik. Nə qədər bizə təzyiqlər və təhdidlər olsa belə, biz bu yoldan dönməyəcəyik. Ona görə biz öz sözümüzü deyirik. Biz görürük ki, harada vəziyyət ağırdır bunu deyirik, yol göstəririk, öz nümunəmizi göstəririk. Sadəcə olaraq, kimisə tənqid etmək üçün hansısa fikirləri demirik. Deyirik ki, baxın, Azərbaycanda bu məsələlər necə həll olunur. Niyə Azərbaycanda bu mümkündür? Niyə Azərbaycanda xalq vahid amal, ideya uğrunda birləşə bilir, başqa ölkələrdə süni səbəblər üzündən bir-birini öldürür, qanını tökür, qırır? Heç başa düşmür nəyə görə? Yaxın Şərqdə vuruşanların böyük əksəriyyəti anlamır ki, onlar nəyə görə, kimin tərəfində vuruşurlar, kimin maraqlarını müdafiə edirlər. Qardaş qanı axıdırlar, şəhərləri dağıdırlar, elə günə salırlar ki, o şəhərlərin, o ölkələrin bərpası bundan sonra mümkün olmayacaq. Nəyə görə? Çünki təbliğat, xarici təsir və hakimiyyətlərin zəifliyi. Harada ki, hakimiyyət möhkəmdir, xalqla bir yerdədir heç bir kənar qüvvə o hakimiyyətin iradəsinə təsir edə bilməz, o hakimiyyəti heç bir avantüraya çəkə bilməz.



Bir daha demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur.

Bu gün burada bütün Azərbaycan toplaşıbdır. Azərbaycanın hər bir rayonundan nümayəndələr buradadır. Onları salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı yaşadıqları bölgələrin sakinlərinə çatdırsınlar. Gəncə sakinlərini salamlayıram, təbrik edirəm ki, "İmamzadə" dini-mədəniyyət mərkəzi yeni görkəm alıbdır. Sağ olun, sizə yeni uğurlar arzulayıram.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə çıxışında Dünyada baş verən hadisələr fonunda – islamofobiya, İslam adından sui-istifadə edərək törədilən qırğınlar, Yaxın Şərqdə və qonşu ölkələrdə qanlı faciələr, iqtisadi, siyasi böhranlar, Azərbaycan torpaqlarının 20 faizinin erməni ekstremistləri tərəfindən işğal edilməsindən bəhs edib. O, Ulu Öndərin bizə əmanət qoyduğu müstəqilliyimizin qorunub saxlanılması üçün gecə-gündüz zəhmət çəkən cənab İlham Əliyevə, həmçinin mədəni irsimizi dünyada təbliğ edən Mehriban xanım Əliyevaya gələcək fəaliyyətlərində uğurlar diləyib. Dövlətimizin milli-mənəvi irsimizlə yanaşı, bəşəri dəyərlərə sahib çıxdığını, dini məbədləri rövnəqləndirdiyini, dini icmalara yardım və himayəsini əsirgəmədiyini bildirən A.Paşazadə buna görə dindarların dövlətimizə və dövlətimizin başçısına minnətdar və bu siyasətə sadiq olduğunu söyləyib.

* * *

Şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısına Qurani-Kərim hədiyyə edib.

* * *

Daha sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Azərbaycan Katolik Kilsəsinin rəhbəri Vladimir Fekete və Gəncə Dövlət Universitetinin dekanı Mübariz Yusifov da çıxış edərək Prezidentə dini məbədlərin tikintisinin, bərpasının qeydinə qaldığına, buna şəxsən mənəvi və maliyyə dəstəyi göstərdiyinə görə minnətdarlıqlarını bildiriblər. Həmçinin vurğulanıb ki, ənənəvi dinlərin liderlərinin bu tədbirdə iştirakı Azərbaycanda tolerantlığın, dinlərarası münasibətlərin yüksək səviyyəsinin bütün dünya üçün təsdiqi və parlaq nümunəsidir. Azərbaycan 2016-cı ili "Multikulturalizm ili" elan etməklə dünyaya bir çağırış vermişdir və o çağırışla bütün dünya xalqlarına, bütün dünya dövlətlərinə Azərbaycanın bugünkü həqiqətlərini bəyan etmək istəyir.

* * *

Mübariz Yusifov "Gəncə İmamzadə ziyarətgahı" kitabını Azərbaycan Prezidentinə təqdim edib.

* * *

Mərasimdən sonra dövlətimizin başçısı "İmamzadə" kompleksində yaradılan şəraitlə tanış olub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Prezident İlham Əliyevə "İmamzadə" dini kompleksinin təmiri, bərpası və ətrafında aparılan abadlaşdırma işləri barədə məlumat veriblər. Bildirilib ki, ümumi sahəsi 1000 kvadratmetr olan digər korpusda Hüseyniyyə və Zeynəbiyyə namazgahları yerləşir. Burada müxtəlif diametrli 46 günbəz ucaldılıb. Xüsusi qurbangahda və 850 nəfərlik ehsan zalında zəvvarların ziyarəti üçün hər cür şərait yaradılıb.

Dövlətimizin başçısı beşinci imam Məhəmməd Baqirin oğlu İbrahimin məzarının yerləşdiyi türbədə olub.

Azərbaycan Prezidentinin din xadimləri ilə söhbəti zamanı Qafqaz Müsəlmanları İdarəsi sədrinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov da dinimizə göstərdiyi qayğıya, bu dəyərli sənət əsərini Gəncəyə hədiyyə etdiyinə görə dövlətimizin başçısına şəhər sakinləri və dindarlar adından dərin minnətdarlığını bildirib.

* * *

Ziyarətgahın müsəlman aləmi üçün əhəmiyyətini və yaxın-uzaq xaricdən gələn zəvvarların sayının ildən-ilə artmasını nəzərə alaraq tikilmiş mehmanxanada 33 müsafir otağı var. Burada da ayrı-ayrılıqda qadınlar və kişilər üçün dəstəmazgah, yeməkxanalar, konfrans zalı, dini kitabxana, muzey fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev "İmamzadə" kompleksində təmir və yenidənqurma işlərini hər zaman diqqətdə saxlayıb, üç dəfə bu kompleksə gələrək tapşırıq və tövsiyələrini verib. Dövlətimizin başçısının Sərəncamı ilə müxtəlif illərdə Prezidentin ehtiyat fondundan kompleksin təmir-bərpa işlərinə ümumilikdə 26 milyon manat vəsait ayrılıb. Təmir-bərpa işlərinin layihələndirilməsi və icrası yerli qurumlar tərəfindən aparılıb. Belə ki, Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun Gəncə filialı tərəfindən hazırlanmış yenidənqurma və bərpa layihəsini "Gəncəkörpütikinti-2" Səhmdar Cəmiyyətinin inşaatçıları icra ediblər. Ziyarətgahda təmir-bərpa və tikinti işləri zamanı qədim memarlıq üslubunu saxlamağa xüsusi diqqət yetirilib. Yenidənqurma zamanı kompleksin ərazisi abadlaşdırılıb, geniş yaşıllıq zolağı salınıb, avtomobil dayanacağı tikilib.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Daha sonra Prezident İlham Əliyevin adından "İmamzadə" dini kompleksində ehsan süfrəsi açılıb.

# Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli" mövzusunda elmi-praktik seminar keçirilib

***Fevralın 22-də Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli" mövzusunda elmi-praktik seminar keçirilib.***




Seminarda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin ölkəmizdə multikulturalizm ənənələrinin formalaşması və bu modelin yaradılmasında Ümummilli Lider Heydər Əliyevin xidmətləri barədə məruzəsi dinlənilib. Dövlət müşaviri bildirib ki, Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib məqam Ulu Öndərin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilib.

Kamal Abdullayev qeyd edib ki, Ümummilli Lider multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edir, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, müxtəlif dinlərə məxsus insanların dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycanın dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Dövlətimizin başçısı daim ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Azərbaycanın mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri həm də mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar forumların keçirilməsidir.

Dövlət müşaviri qeyd edib ki, Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu mühüm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəlifliklərı rejimində fəaliyyət göstərməsini reallaşdırır. Heydər Əliyev Fondunun düşünülmüş, sistemli fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Fondun Prezidenti, Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgəyaşama", "Azərbaycan – tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

Kamal Abdullayev bildirib ki, müasir dövrdə Azərbaycan özünün multikulturalizm siyasəti və bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə, o cümlədən bununla bağlı tarixən zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunədir. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Bütün bunların nəticəsidir ki, 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub.

# "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbi başa çatıb



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə fəaliyyətə başlayan "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı qış məktəbi başa çatıb.

Qış məktəbinin yekunları ilə bağlı keçirilən tədbirdə Almaniya, Portuqaliya, Polşa, Gürcüstan, Rusiya və Nigeriyadan olan gənclər çıxış edərək Azərbaycanda gördükləri tolerantlıq ənənələrindən danışıblar. Qubaya, Xaçmaza, Qusara, Şahdağa da səfər etdiklərini bildirən gənclər Azərbaycandakı dözümlülüyün, ünsiyyətə açıqlığın təkcə paytaxt üçün deyil, əyalətlər üçün də səciyyəvi olduğunu, tolerantlığın Azərbaycanın hər yerində oturuşmuş bir dəyər olduğunu söyləyiblər. Öz ölkələrindəki multikulturalizm ənənələrindən bəhs edən qış məktəbi iştirakçıları Azərbaycanın multikulturalizm modelinin həm işlək, həm də ümidverici olduğunu və dünyanın bir çox dövlətləri üçün nümunə təşkil etdiyini vurğulayıblar.

Daha sonra söz Azərbaycanın millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayevə verilib:

"Qış məktəbinin baş tutmasında əməyi keçən hər kəsə, bütün qurumlara dərin minnətdarlığımı bildirirəm. Bu günlər ərzində siz bir çox qurumlarda, nazirliklərdə oldunuz. Bakıda və Azərbaycanın bir çox şəhərlərinə səyahət etdiniz. İnanıram ki, azərbaycanlı tələbələrimiz də xarici həmyaşıdları ilə mənalı günlər keçiriblər. Bu tədbirin məqsədi təkcə sizlərin Azərbaycana olan marağını məhəbbətə çevirmək deyildi, bu, eyni zamanda azərbaycanlı gənclərin sizin təmsil etdiyiniz İsveçrə, Ukrayna, Türkiyə, İtaliya, Portuqaliya, Polşa, Rusiya, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva, İndoneziya, Yaponiya, Almaniya, Nigeriyaya olan məhəbbətini təmsil edirdi. İnanıram ki, gələcəkdə gənc nəslin bu nümayəndələrinin bir-biri ilə dostluğu və bir-birinə məhəbbət dolu qarşılıqlı münasibətləri həyatları boyu davam edəcək. Bu gün Azərbaycan müxtəlif millətlərin, dinlərin, irqlərin qaynayıb-qarışdığı və bir mənəvi bütövlük hiss etdiyi bir Vətənə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev gələcəyə nikbinliklə baxır və belə deyir: "Multikulturalizmin dünyada alternativi yoxdur. Azərbaycanda multikulturalizm yaşayır və yaşayacaq". Elə buna görə də Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etdi və bütün dünyaya azərbaycanlıların mərhəmət, şəfqət, başqasının halına acıma, başqasını öz yanında görmək, başqasına xor baxmamaq kimi dərin duyğularını bütün dünyaya nümayiş etdirdi. Gələcəkdə sizin hamınızı yenidən Azərbaycanda görmək arzusundayıq".

Bağlanış mərasimində daha sonra Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edib.

Qış məktəbinin tələbələrinə sertifikat və hədiyyələr təqdim olunub. Mərasim musiqili-bədii axşam proqramı və ziyafətlə yekunlaşıb.

Bununla da "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbi öz işini başa çatdırıb.

# "Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü ən yüksək səviyyədə göstərir"




**Qaradağ və Siyəzən rayonlarında "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda konfrans keçirilib.**

Fevralın 11-də Bakı şəhəri Qaradağ rayonunda "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda konfrans keçirilib. Konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qaradağ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşıb.

Hüquq mühafizə orqanlarının nümayəndələri, dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov açıb. O, aktual mövzuya həsr olunmuş konfransın əhəmiyyətindən, ölkəmizdə mövcud olan multikultural mühitin dərin tarixi köklərindən danışıb. Multikulturalizmin dövlət siyasəti kimi Ulu Öndər Heydər Əliyev tərəfindən əsasının qoyulduğunu deyən S.Mikayılov bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Daha sonra çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı ölkəmizdə hökm sürən multikultural və tolerant mühitin əsasında Ulu Öndər Heydər Əliyev tərəfindən praktik olaraq dövlət siyasəti kimi tətbiq edilən Azərbaycançılıq ideologiyasının dayandığını bildirib. Ölkəmizdə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində, heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşadıqları ərazi olduğunu deyən Komitə sədri xalqımızın bu ənənələrinin tarixi keçmişimizdən, mental dəyərlərimizdən qaynaqlandığını bildirib.

Mübariz Qurbanlı vurğulayıb ki, dini və milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Dövlət Komitəsi sədrinin sözlərinə görə, məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş dairələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, hətta bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğunu xatırladan Dövlət Komitəsinin sədri qeyd edib ki, bununla biz Azərbaycan xalqının dostluq, qardaşlıq şəraitində yaşamağa qadir bir xalq olduğunu bütün dünyaya bir daha nümayiş etdirəcəyik.

Daha sonra işini rayon gənclərinin iştirakı ilə panel formatında davam etdirən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Qaradağ Rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasov, DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Rüstəm Ramazanov çıxış ediblər.

* * *

**"Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda daha bir konfrans fevralın 24-də Siyəzən şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilib.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan konfransda hüquq-mühafizə orqanlarının əməkdaşları, dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, ölkədə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, onların nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü ən yüksək səviyyədə göstərir.

Mübariz Qurbanlı deyib ki, Azərbaycanda milli, etnik, dini nifrət yox dərəcəsindədir. Həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasətinə və həyat tərzinə, tolerantlıq isə xalqımız üçün demokratik dəyərə çevrilib. Prezident İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir.

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Cavanşir Əfəndiyev və Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Təhminə Bəxtiyarova çıxış edərək, Azərbaycandakı multikultural mühitin dünya üçün nümunə olduğunu diqqətə çatdırıblar.

Daha sonra konfrans işini rayon



dilinə, dininə, mədəniyyətinə xalqımız tərəfindən daim yüksək qiymət verildiyini bildirib.

DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin əsasında Azərbaycançılıq ideologiyasının dayandığını bildirib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət

gənclərinin iştirakı ilə panel formatında davam etdirib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov "Azərbaycanda ənənəvi İslam dəyərləri: tarixilik və müasirlik", Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov "Multikulturalizm siyasəti: beynəlxalq təcrübə və Azərbaycan modeli" mövzularında çıxış ediblər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Dövlət Komitəsinin sədri Almaniya səfirliyinin nümayəndələrini qəbul edib

**Fevralın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Almaniya Federativ Respublikasının ölkəmizdəki səfirliyinin missiya rəhbərinin müavini Eygen Şonfel və səfirliyin birinci katibi Paul Amannı qəbul edib.**

Dövlət Komitəsinin sədri qonaqlara ölkəmizdəki mövcud dini durum və Komitənin fəaliyyəti barədə ətraflı məlumat verib. Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərən müxtəlif dini konfessiyaların dilinə, dininə, mədəniyyətinə xalqımız tərəfindən



daim yüksək qiymət verilib. Bu ənənələrin dərin tarixi köklərdən qaynaqlandığını deyən Komitə sədri həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində multikultural və tolerant dəyərlərin Azərbaycanın dövlət siyasətinə çevrildiyini vurğulayıb. O qeyd edib ki, bu gün Prezident İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir.

Azərbaycanın dinamik inkişafının, ölkəmizdə yüksək səviyyəli multikultural mühitin mövcudluğunun şahidi olduqlarını bildirən qonaqlar bu sahədə ölkələr arasında gələcəkdə təcrübə mübadiləsinin aparılmasında maraqlı olduqlarını qeyd ediblər.

Sonda qonaqlar səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürlərini bildiriblər.

# Mübariz Qurbanlı: "Azərbaycan multikultural modeli dünyaya nümunədir"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Respublika" qəzetinə müsahibəsi**

**- Mübariz müəllim, cənab Prezident 2016-cı ili "Multikulturalizm ili" elan etdi. Bu da təsadüfi deyil. Əsrlərdir ki, xalqımız tolerantlıq ənənələrinə, başqa dinlərə və mədəniyyətlərə hörmətlə yanaşıb, sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verib. Bu barədə fikirlərinizi bilmək istərdik.**

- Danılmaz faktdır ki, mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də yüksək şəkildə davam edir. Çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə bu gün dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər. Xalqımızın gen yaddaşından süzülüb gələn dözümlülük, multikultural ənənə bizim üçün normal yaşayış, həyat tərzidir desək, əsla yanılmış olmarıq. Çünki heç zaman Azərbaycanda dini, milli zəmində qarşıdurma olmayıb. Bu sahədə cəmiyyətdə formalaşmış dözümlülük, tolerantlıq və multikultural ənənələri ilə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir.

Bu gün ölkəmizin hər kəs üçün multikultural məkana çevrildiyi təkzibedilməz faktdır. Azərbaycanda yaşayan müxtəlif xalqlar, mədəniyyət və din ardıcılları arasında qarşılıqlı hörmətin, birgəyaşayış ənənəsinin mövcudluğu əksər dünya ölkələri, beynəlxalq təşkilatlar, diplomatlar, din xadimləri tərəfindən də qəbul edilir və müxtəlif tədbirlərdə bir çox dövlətlər üçün örnək göstərilir. Məsələn, bu yaxınlarda ölkəmizdə qonaq olmuş ABŞ-dakı Simon Vizental Mərkəzinin rəhbərinin müavini, tanınmış ravvin Abraham Kuper bildirib ki, Azərbaycanın dünyaya ixrac üçün olduqca qiymətli sərvəti - tolerantlığı, multikultural dəyərləri var.

Təbii ki, ölkəmizdə mövcud olmuş tolerantlıq və multikulturalizm mühitinin daha da güclənməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezidentin "Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır" fikirləri, həmçinin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi də dövlətimizin humanizmə, birgəyaşayış ənənəsinə verdiyi dəyərin bariz nümunəsidir.

**- Son illər ölkəmizdə xalqımızın tolerantlıq prinsiplərinə dönmədən sadiq qaldığını, multikulturalizm ənənələrinin təbliğində Azərbaycanın əvəzsiz rolunu özündə əks etdirən böyük tədbirlər keçirildi. Bu tədbirlərin əhəmiyyəti nədən ibarətdir?**

- Bu gün dünyada dini, etnik zəmində gedən bir sıra münaqişələrin əksəriyyəti məhz multikultural dəyərlərə, onun tərkib hissəsi olan tolerantlıq prinsipinə riayət olunmamasından irəli gəlir. Bəzən terrora



və qarşıdurmalara rəvac verən əsas amillərdən biri də multikulturalizmin və tolerantlığın lazımi səviyyədə inkişaf etdirilməməsidir. Multikultural mühitin və dözümsüzlüyün zəifləməsi nəticədə bəşəriyyətin tarixən can atdığı sivil dəyərləri sarsıdır və tolerantlıq düşüncəsinə böyük zərbə vurur. Dövlət başçısı cənab İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirdiyi, "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir" fikirləri də ölkə rəhbərinin mutlikulturalizmə böyük önəm verdiyinin və onu dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab etdiyinin göstəricisidir. Bu baxımdan dövlətimiz tərəfindən həm ölkə daxilində, həm də xaricində multikulturalizmin və dini tolerantlığın təbliği istiqamətində tədbirlərin keçirilməsi və bu sahədə uğurlu Azərbaycan modelinin nümayişi böyük əhəmiyyət daşıyır.

**- Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, ümumiyyətlə, dövlətimizin multikulturalizm siyasətinə xüsusi önəm verməsi hansı zərurətdən qaynaqlanır?**

- İlk növbədə vurğulayım ki, öz mədəniyyətinə, tarixinə, adət-ənənələrinə hörmətlə yanaşan xalq eyni münasibəti fərqli mədəniyyətlərə də göstərməlidir. Bu, müxtəlif mədəniyyətlərin nümayəndələri arasında sağlam və möhkəm əlaqələr yaratmaqla yanaşı, hər bir xalqın öz identikliyini qoruyub saxlamasını da təmin edir. Xüsusilə, qloballaşan dünyada heç bir cəmiyyət multikulturalizmin təsirindən kənarda qala bilməz. Çünki müəyyən sərhədlər çərçivəsində özünə qapanmış istənilən mədəniyyət tez bir zamanda tənəzzülə uğrayar. Odur ki, xalqımızın zəngin mənəvi-mədəni dəyərlərinin, mədəniyyətinin qorunması və inkişaf etdirilməsi məqsədilə multikulturalizm siyasətinin həyata keçirilməsi dövlətimizin əsas prioritetlərindən biridir.

Ümumiyyətlə, multikulturalizm sahəsində həyata keçirilən dövlət siyasəti əsrlərdən bəri toplanmış böyük tarixi təcrübəyə dayanır və bu istiqamətdə qazanılmış uğurların dünya miqyasında təbliğinin gücləndirilməsi zərurətini yaratmışdır. Hesab edirəm ki, Azərbaycanda multikulturalizmin həyat tərzinə çevrildiyini beynəlxalq aləmdə tanıtmaq, nümayiş etdirmək dünyada humanizmin inkişafı, dini ayrı-seçkiliyin, eyni zamanda məzhəb qarşıdurmasının durdurulması istiqamətində böyük töhfə verəcək. Bu nöqteyi-nəzərdən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması və fəaliyyəti ölkənin ictimai-siyasi həyatında müsbət addımdır.

**- Hazırda bütün dünyada insanlar etnik, dini, məzhəb fərqliliyinə görə bir-birini öldürür. Lakin Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Ölkəmizdə bu multikultural modeli dünyada tanıtmaq üçün Dövlət Komitəsinin gördüyü tədbirlər barədə fikirlərinizi bilmək maraqlı olardı.**

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi son dövrlər Azərbaycan həqiqətlərinin, tolerantlıq, mutlikulturalizm mədəniyyətinin tanıdılması, təbliğatı istiqamətində ölkə hüdudlarından kənarda fəaliyyətini daha da gücləndirib və bu sahədə təşkil olunan beynəlxalq tədbirlərdən bəzilərinin iştirakçısı, bəzilərinin də bilavasitə təşkilatçısı olub. Belə tədbirlərə örnək kimi, 2015-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə Azərbaycanın dini dözümlülük modelinin təbliğinə həsr olunmuş "Azərbaycanda dini tolerantlıq-birgəyaşayış mədəniyyəti" konfransını, Dövlət Komitəsinin dəstəyi ilə Brüsseldə "Tolerantlıq və birgəyaşayış modelləri: Yeni Avropa üçün Azərbaycan örnəyi" mövzusunda beynəlxalq simpoziumu və s. göstərə bilərik. Həmin tədbirlərdə Azərbaycanın dünya ictimaiyyətinə sivilizasiyaların və dinlərin qovuşduğu tarixi məkan kimi tanıdılması, dövlətimizin din siyasəti, xalqımızın tolerant və multikultural dəyərləri beynəlxalq miqyasda avropalı ekspertlər, eyni zamanda ölkəmizdəki müxtəlif dini konfessiyaların rəhbərləri vasitəsilə nümayiş etdirilib. Bununla yanaşı, dünyəvi dövlət olan Azərbaycanda dini konfessiyaların sərbəst fəaliyyət göstərdiyi, dövlətimizin din siyasətinin əksər ölkələr üçün nümunəvi model olduğu geniş şəkildə təbliğ olunub.

Dövlət Komitəsi bu ilin cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan olunmasını nəzərə alaraq, ölkəmizdə əsrlərdir mövcud olan tolerantlıq və multikulturalizm ənənəsinin təbliği istiqamətində həm daxili, həm də xarici tədbirlərin sayını daha da artıracaq. Bu işlər təkcə tədbirlərin keçirilməsi ilə məhdudlaşmayacaq, eyni zamanda xarici kütləvi informasiya vasitələrində də geniş təbliğ olunacaqdır.

**- Bir çox siyasətçilər multikulturalizmin iflasa uğradığını söyləyirlər. Bəs Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun bu il Bakıda keçirilməsini dünya ölkələrinin qəbul etməsi Azərbaycanda multikultural mühitə münasibətdən irəli gəlmirmi?**

- Azərbaycanda bütün dini inanclara, onların mənsublarına hörmətlə yanaşılır. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Eyni zamanda, ölkə ərazisində mövcud olan İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları maddi-mənəvi irs kimi qorunub-saxlanılır. Rus pravoslav və katolik kilsələri, Bakı şəhərində inşa olunmuş sinaqoq əzəmətinə görə öz ölkələrindəki dini abidələrdən heç də geri qalmır. Bir faktı da qeyd edim ki, dünyada yəhudilərin azad şəkildə öz dini inanclarını icra etdiyi ölkələr sırasında İsraildən sonra Azərbaycanın adı birinci çəkilir.

Ümumiyyətlə, ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlər boyu əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında xalqımıza xas olan humanizmin və multikultural dəyərlərin müstəsna rolu var. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun bu il Bakıda keçirilməsi də dünya ölkələrinin bu həqiqəti qəbul etdiyini bir daha sübuta yetirir.

**- Ölkəmizdə multikulturalizm ənənələrinin inkişafı, möhkəmləndirilməsi, belə demək mümkünsə, bu ənənələrin davam etdirilməsi üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hansı işlər görür?**

- Multikulturalizm ənənələrinin inkişafı, möhkəmləndirilməsi üçün ən effektiv yol bu sahədə maarifləndirmə işinə daha çox yer ayırmaqdır. Bu baxımdan Dövlət Komitəsi son zamanlar maarifçiliyin keyfiyyətinə diqqəti daha da artırıb, demək olar ki, ölkənin bütün regionlarında dini icma nümayəndələri, dindarlar və ictimaiyyətlə silsilə konfranslar, müşavirələr, "dəyirmi masa"lar təşkil edir. Bu tədbirlər, əsasən, fərqli din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik hallarına yol verilməməsi, dini icmaların fəaliyyətində tolerantlığın və multikulturalizmin gücləndirilməsi, cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması məqsədi daşıyır. Maarifləndirmə istiqamətində işlər elektron kütləvi informasiya vasitələri, mətbu orqanlar və Dövlət Komitəsi tərəfin-

⇨ 7

# Mübariz Qurbanlı: "Azərbaycan multikultural modeli dünyaya nümunədir"

6⇦ dən hazırlanan elektron nəşrlər vasitəsilə də həyata keçirilir.

Bir faktı da qeyd edim ki, dövlətimizin başçısının 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılıb. Dövlət Komitəsi tərəfindən artıq 77 İslam, 19 qeyri-islam dini icmasına maddi vəsait ayrılıb. Vəsaitin səmərəli şəkildə sərf edilməsi və işlərin yüksək səviyyədə təşkil olunması üçün bizim tərəfdən dini icmalara həm təşkilati, həm də informasiya dəstəyi verilir. İcmalar tərəfindən layihələrin reallaşması, dini maarifləndirmə və milli-mənəvi dəyərlərin düzgün təbliği, xüsusilə gənclərə dinin olduğu kimi izah edilməsinin həm tolerant, multikultural ənənələrimizin inkişafında, həm də radikalizmlə mübarizədə öz müsbət təsirini göstərəcəyinə şübhə etmirəm.

**- Multikultural təhlükəsizliyin təmin olunması üçün hansı zəruri tədbirlər görülür və görülməlidir?**

- Multikultural təhlükəsizlik ölkədə yaşayan irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının, eyni zamanda bütün xalqların, etnik qrupların mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi deməkdir. Əgər hansısa dövlətdə bu dəyərlər mövcud olmasa, orada etnik, dini, irqi zəmində qarşıdurmalar, münaqişələr qaçınılmaz hala gələcək. Bu baxımdan tarix boyu ölkəmizdə mövcud olan müxtəlif konfessiyaların, etnik birliklərin dostluq və mehriban şəraitdə yaşaması ənənəsi müstəqilliyimizin bərpasından sonra yeni bir mərhələyə qədəm qoyub.

Dövlət müxtəlif konfessiyalara bərabər siyasi münasibət bəsləyir, azsaylı xalqların müxtəlifliklərinin qorunması istiqamətində öz qayğısını əsirgəmir və ən əsası, heç birini digərindən fərqləndirmir. Bu da dinindən, milliyyətindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkə vətəndaşları arasında dostluq, qardaşlıq münasibətinin güclənməsinə və qırılmaz tellərlə bir-birinə bağlanmasına gətirib çıxarır. Dövlət tərəfindən bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərin, tolerantlıq və multikulturalizm ənənəsinin qorunması sahəsində də ardıcıl siyasət yürüdülür. Aparılan bu siyasətin nəticəsidir ki, dünya bizi multikultural və tolerant dəyərlərə sahib ölkə kimi daha yaxından tanıyır və maraqla öyrənir.

*"Respublika" qəzeti, 12 fevral 2016-cı il.*

# Dövlət Komitəsinin sədri Siyəzəndə vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 24-də Siyəzən şəhərindəki Heydər Əliyev Mərkəzində bu rayondan və Şabrandan olan sakinləri qəbul edib.

Əvvəlcə Mərkəzin qarşısında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyulub, xatirəsi ehtiramla yad olunub.

Qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini mərkəzlərin müvafiq ədəbiyyatla təminatı və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin sədri vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib, bir sıra müraciətləri isə yerindəcə həll edib. Vətəndaşların Komitənin səlahiyyət dairəsinə aid olmayan məsələlərə dair müraciətləri aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

# Dövlət Komitəsində Xocalı soyqırımının qurbanları anılıb



***Fevralın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Xocalı soyqırımının 24-cü ildönümü ilə bağlı anım tədbiri keçirilib.***

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Xocalı soyqırımının Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu qeyd edib. O bildirib ki, Xocalı soyqırımı XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

Mübariz Qurbanlı məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 26 fevralın bütün bəşəriyyətə qarşı tarixi bir cinayət kimi qiymətləndirilərək, həmin günün "Xocalı soyqırımı günü" elan edildiyini diqqətə çatdırıb.

Komitə sədri Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması və hadisənin dünya ictimaiyyətinin hüquqi-siyasi və mənəvi baxımdan qiymətləndirilməsi üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə təsis edilən "Xocalıya Ədalət" beynəlxalq kampaniyası çərçivəsində dünyanın bir çox ölkəsində yüzlərlə könüllü tərəfindən uğurlu tədbirlərin həyata keçirilməsindən danışıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək tariximizə qanlı hərflərlə yazılmış Xocalı soyqırımında cinayətkar erməni qruplarının vəhşiliyi nəticəsində 613 nəfərin öldürüldüyünü, 487 nəfərin şikəst olduğunu, 1275 nəfər dinc sakinin - qocalar, uşaqlar, qadınların əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qaldığını deyib. O bildirib ki, Azərbaycan xalqı insanlıq əleyhinə törədilmiş bütün cinayətləri pisləyərək Azərbaycana, azərbaycanlılara qarşı törədilmiş bu soyqırımına beynəlxalq miqyasda adekvat qiymət verilməsini istəyir və bu istiqamətdə fəaliyyət göstərir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev isə bildirib ki, bu cinayət cəzasız qalmamalı, Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən qınanmalı, beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsl soyqırımı hadisəsi kimi beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verməlidirlər.

Anım tədbirində iştirak edən Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisi Sveçnikov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, Azərbaycandakı Roma Katolik Kilsəsinin nümayəndəsi Yozef Marek, Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova və digərləri Xocalıda uşaqların, qadınların, yaşlıların amansızlıqla qətlə yetirildiyini söyləyib, bu faciəyə beynəlxalq miqyasda siyasi-hüquqi qiymət verilməsinin zəruriliyini vurğulayıblar.

# Bölgələrdə anım tədbirləri keçirilib

Bəşəriyyət tarixinin ən dəhşətli kütləvi terror hadisələrindən olan Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən Xocalı soyqırımına həsr olunmuş anım mərasimləri keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar, Sumqayıt, Lənkəran, Şamaxı, Masallı və Quba bölgəsi üzrə şöbələrinin əməkdaşlarının iştirakı ilə baş tutan anım mərasimlərində Dövlət Komitəsinin əməkdaşları, dini icma rəhbərləri, axundlar, imamlar və dindarlar iştirak ediblər.

Tədbirlərdə çıxış edənlər dinc əhaliyə qarşı törədilmiş soyqırımı barədə ətraflı danışaraq, dəhşətli faciənin erməni şovinist millətçiləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin davamı olduğunu bildiriblər. Qeyd edilib ki, erməni silahlı dəstələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə törətdikləri soyqırımı zamanı 613 nəfərin, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qocanın həyatına son qoyulub, 1000-dən çox dinc sakin ağır yaralanaraq əlil olub, 1275 nəfər girov götürülüb, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bildirilib ki, xalqımız insanlıq əleyhinə törədilmiş bütün cinayətləri pisləyir və azərbaycanlılara qarşı törədilmiş bu soyqırımına beynəlxalq miqyasda adekvat qiymət verilməsini istəyir. Xocalı soyqırımı dünya birliyi tərəfindən tam şəkildə tanınmasa, beynəlxalq məhkəmələr bu cinayəti törədən erməni faşistlərini mühakimə etməsə insan haqları deyilən dəyərlər tədricən öz mahiyyətini itirəcək.

Anım mərasimlərinin sonunda Xocalı hadisəsində həyatını itirənlərə dualar oxunaraq, Allahdan işğal altında olan torpaqlarımızın tezliklə azad edilməsi istənilib.

# "Müsəlman öz günahsız bacı və qardaşlarına qarşı silah işlətməz"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlının "Report"a müsahibəsi**



**- Bu il Azərbaycanda elan olunan "Multikulturalizm ili" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hansı işləri həyata keçirəcək?**

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin keçirdiyi və keçirəcəyi tədbirlər əsasən iki istiqamətdədir – ölkədaxili və beynəlxalq aləmə yönəlmiş tədbirlər. Tədbirlər planında il ərzində regionlarda "Azərbaycan xalqının tolerant və multikultural dəyərləri - tarixilik, varislik və müasirlik" adlı konfransların keçirilməsi nəzərdə tutulub.

Eyni zamanda, dini tədris müəssisələrini, dini icmaları, dini konfessiyaları və ibadət evlərini əhatə edən tədbirlər keçirməyi planlaşdırırıq. Əslində, multikulturalizm və multikulturalizmin tərkib hissəsi olan tolerantlıqla bağlı bizim tərəfimizdən yerlərdə silsilə tədbirlər hər zaman keçirilib. Sadəcə olaraq, bu tədbirlər 2016-cı ildə özünün kulminasiya nöqtəsinə çatacaq. Biz ötən illərdə beynəlxalq tədbirlərimizi, tutaq ki, bizə yaxın olan ölkələrdə, eyni zamanda Azərbaycanın tolerantlıq, multikulturalizm modelinin təbliğ olunmasını zəruri olduğu ölkələrdə keçirirdiksə, bu il bu tədbirlər daha geniş coğrafiyanı əhatə edəcək.

**- Bakıətrafı qəsəbələrdə, dini baxımdan həssas olan bölgələrdə hər hansı xüsusi tədbirlər nəzərdə tutulurmu?**

- Nardaranda "Bilik evi"nin yaradılması planlaşdırılır.

**- Ötən il sizə müraciət edən nə qədər dini icma qeydiyyata alınmayıb? Bunun əsas səbəbləri nədir?**

- Öncə qeyd etməliyəm ki, ötən il ərzində dövlət komitəsi tərəfindən 52 dini icma qeydiyyata alınıb. Bunlardan 49-u İslam, 3-ü isə qeyri-islam dini icmasıdır.

İslam yönümlü dini icmalar qeydiyyat üçün əvvəlcə sənədlərini Qafqaz Müsəlmanları İdarəsinə (QMİ) göndərirlər. QMİ-dən həmin sənədlər dövlət komitəsinə daxil olur. Hansı icmanın sənədləri yerində olursa, həmin icma qeydiyyata alınır. İcma bəzən ona görə qeydiyyata alınmır ki, onların sənədlərində çoxlu səhvlər olur və sənədlər geri qaytarılır. Bununla bağlı icmaya məktub göndərilir. Məktubda bu məsələ izah olunur.

**- Nardaran qəsəbəsindəki "Cümə" məscidi dini icmasının yaradılması prosesi hansı mərhələdədir?**

- Həmin dini icmanın qeydiyyatı ilə bağlı sənədləşmə prosesi həyata keçirilir. Yaxın zamanlarda icmanın qeydiyyatı baş tutacaq.

**- Nardaranda, eləcə də digər qəsəbələrdə daha bir neçə dini icmanın qeydə alınması nə dərəcədə mümkündür?**

- Heç bir dini icmanın qeydiyyatına süni maneçilik yaradılmır. Hansı dini icmanın qeydiyyatı üçün komitəyə müraciət olunarsa və həmin icmanın sənədləri qaydasında olarsa, o icma qeydiyyata alınacaq.

**- Tolerantlığın qorunması məqsədilə dini mühitdəki radikal elementlərin qarşısının alınmasında cəmiyyətin rolunu nədə görürsünüz?**

- Azərbaycanda tarixən dini tolerantlıq mədəniyyətinin yüksək olduğunu dəfələrlə həm dinşünas alimlər, həm də digər dinlərin nümayəndələri etiraf ediblər. Respublikamız çoxkonfessiyalı ölkədir və burada tarixən müxtəlif dini və mədəni abidələr mövcuddur. Ümummilli Liderimiz Heydər Əliyev siyasətini layiqincə davam etdirən dövlət başçısı İlham Əliyevin rəhbərlik etdiyi ölkəmizdə tolerant, multikultural mühit hökm sürür. Biz bu məsələdə dünyaya örnəyik.

O ki qaldı dini radikalizmlə mübarizəyə, Prezident İlham Əliyev ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı sərəncama əsasən dövlət komitəsinin dəstəyi ilə bölgələrdə maarifləndirmə tədbirləri keçirilir. Gənclərin, ağsaqqalların və cəmiyyətin digər nümayəndələrinin iştirak etdiyi bu cür tədbirlər, şübhəsiz ki, radikal elementlərin qarşısının alınmasında öz müsbət effektini verir. İkincisi də cəmiyyət maarifləndikcə həm radikalların təsirinə düşmür, həm də özü artıq radikalizmə qarşı olur.

**- Dini təyinatlı ədəbiyyatın xüsusi, yəni müəyyən olunmuş nəşriyyatlarda nəşrini həyata keçirmək nə dərəcədə mümkündür?**

- Azərbaycanda dini ədəbiyyat üzərində müəyyən nəzarət həyata keçirilir. Bu, senzura kimi başa düşülməməlidir. Burada məqsəd dövlətin milli və eləcə də ictimai təhlükəsizliyini qorumaqdır. Dövlət Komitəsi bir neçə nəşriyyatla əməkdaşlıq edir.

**- Dini sahədə qanunvericiliyin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlərlə bağlı nələri qeyd edə bilərsiniz?**

- Ötən ilin dekabrında Azərbaycanda Milli Məclis tərəfindən "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun qəbul olunub. Qanunda qeyd olunur ki, dini ekstremizm, dini fanatizm və dini radikalizm hallarının aşkarlanmasına və qarşısının alınmasına və bu hallar nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsinə kömək edə biləcək məlumatları müvafiq dövlət orqanlarına vermək hər kəsin borcudur.

Qanunda o da qeyd olunur ki, dini ekstremist fəaliyyətlə məşğul olan hüquqi şəxslərin qeydiyyatı ləğv edilir və onların fəaliyyəti qadağan olunur. Bu qanunun qəbulunda əsas məqsəd cəmiyyətimizin və dövlətimizin təhlükəsizliyinin təmin edilməsi, dini ekstremizmin aşkar edilməsi, qarşısının alınması və dini ekstremizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi, dini ekstremizmin yaranması və dini ekstremist fəaliyyətin həyata keçirilməsi səbəblərinin və şəraitinin, habelə dini ekstremizmin maliyyələşdirilməsi hallarının aşkar və ləğv edilməsidir.

**- İbadət yerlərinin inşası, bərpası kimi məsələlərin həllinə və prosesin şəffaflığına xidmət edən mexanizm haqqında "hazırda işlək vəziyyətdədir" demək olarmı?**

- Müstəqil respublikamızda bütün tarixi ibadət yerləri dövlət vəsaiti hesabına əsaslı şəkildə bərpa edilib. Buna misal olaraq, Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı məscidlərini göstərmək olar. "Heydər" Məscidinin tikilib istifadəyə verilməsi də nəinki Azərbaycanda, eləcə də İslam dünyasında tarixi hadisə idi.

Dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəy almaq istəyən fiziki və ya hüquqi şəxs DQİDK-ya ərizə ilə müraciət etməlidir. Dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin bərpasının, əsaslı təmirinin məqsədəuyğunluğu barədə müsbət rəyin verilməsinə DQİDK tərəfindən bir neçə hal aşkar edildikdə imtina edilə bilər: birincisi, dini ibadət yerinin tikintisi və mövcud dini ibadət yerinin yenidən qurulması Azərbaycan Respublikasının Konstitusiyasına zidd olarsa; ikincisi, dini-memarlıq baxımından məqsədəuyğun sayılmazsa; üçüncüsü, dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yarada biləcəyi ehtimal olunarsa.

**- Dünyəvi dövlət modelinin dindarlar tərəfindən qəbul edilməsində əsas maneəni nədə görürsünüz?**

- Bildiyiniz kimi, Azərbaycanda din dövlətdən ayrıdır. Eyni zamanda, bizim dövlət təhsil sistemimiz də dünyəvi xarakter daşıyır. Yəni ölkə əhalisinin təxminən 96 faizi İslam dininə etiqad etsə də, respublikamız dünyəvi bir dövlətdir. Hər kəs, o cümlədən dindarlar da yaxşı başa düşürlər ki, dünyəvi dövlətdə yaşayırlar.

Vətənini, millətini sevən hər bir dindar onun qanunlarına da hörmətlə yanaşmalı, qanundan irəli gələn prinsiplərə riayət etməlidir. Bir məsələni də vurğulamaq yerinə düşər, dini etiqad hüquq pozuntusuna bəraət qazandırmır.

**- Məscidlərin nəzdində mədrəsə və kitabxanaların yaradılması məsələsi gündəmdədirmi?**

- Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin təklifinə, Prezident yanında Bilik Fondunun layihəsinə uyğun olaraq, paytaxtdakı bəzi məscidlərdə kitabxanaların yaradılması istiqamətində işlər həyata keçirilməkdədir. Onu da qeyd etməliyəm ki, bu proses təkcə paytaxt məscidləri ilə yekunlaşmır. Belə ki, respublikamızın bütün məscidlərində kitabxanaların yaradılması nəzərdə tutulur. Bu istiqamətdə mütəmadi işlər görülür. Bu kitabxanalar vasitəsilə dini ibadət yerlərinə gələn insanlar öz biliklərini daha da təkmilləşdirəcəklər.

İstənilən dini icma müqəddəs kitabları öyrənmə kursları yarada bilər. Bunun üçün həmin icma Qafqaz Müsəlmanları İdarəsinə müraciət etməli və bu məsələni həmin idarə ilə razılaşdırmalıdır. Bundan sonra isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə məlumat verilir.

Mədrəsələrə gəlincə, qeyd etməliyəm ki, ölkəmizdə din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması üçün dini təhsil müəssisələrini yalnız dini mərkəz və idarələr yarada bilərlər. Yəni mədrəsələri yalnız QMİ yarada bilər. Dini mərkəz və idarələr birdən çox ali dini tədris müəssisəsi yarada bilməz. Dini tədris müəssisələri Təhsil Nazirliyi tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərirlər. Azərbaycanda üç mədrəsə fəaliyyət göstərir.

## Birgə tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2016-cı il üçün birgə tədbirlər planı imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin icra vaxtı, yeri, məsul qurumlar və şəxslər müəyyən edilib.İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər təşkil olunacaq. Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular, tarixçilər, elm xadimləri, ilahiyyatçı alimlərin iştirakı ilə birgə "dəyirmi masa"ların təşkili də nəzərdə tutulub.

## Dövlət Komitəsində Apellyasiya Şurası yaradıldı

Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 3 fevral 2016-cı il tarixli Fərmanına uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Apellyasiya Şurası və Şuranın Katibliyi yaradılıb, onların tərkibi təsdiq edilib.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə yaradılan Şuraya Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı sədr təyin olunub. 6 nəfərdən ibarət Apellyasiya Şurasına Dövlət Komitəsinin mərkəzi aparatına daxil olan şöbələrin müdirləri, katibliyə isə Komitənin məsul əməkdaşları daxildir. Apellyasiya Şurası Bakı şəhəri Əhməd Cavad 12 ünvanında – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin inzibati binasında fəaliyyət göstərəcək.

# Dini qurumlarla işin təşkilatçılarının seminar-müşavirəsi keçirilib

**Fevralın 12-13-də Bakıda ölkəmizin şəhər, rayon icra hakimiyyəti başçısı aparatlarının ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavinləri - dini qurumlarla işin təşkilatçılarının seminar-müşavirəsi keçirilib.**

Seminar-müşavirənin açılışında çıxış edən Prezident Administrasiyası rəhbərinin müavini, regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev tədbirin məqsədindən söhbət açıb. Qeyd edilib ki, iki gün davam edəcək seminar-müşavirədə şəhər və rayonlarda dini qurumlarla işin təşkili ilə məşğul olan şəxslərə zəruri məlumatlar veriləcək, bu fəaliyyətin peşəkar səviyyədə təşkilinə dair müzakirələr aparılacaq. İştirakçılar qarşısında bilavasitə bu sahə ilə məşğul olan mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, alimlər çıxış edəcəklər.



Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, dini mərasimlər zamanı insanlar bəzən həddən artıq ifrata varırlar. Bu, adətən cahillikdən, dini savadsızlıqdan irəli gəlir. Biz elə bir biliyə malik olmalıyıq ki, belə insanlarla söhbət zamanı onları inandıra bilək. Xüsusən yerlərdə bu işlərlə məşğul olan şəxslər insanlara təsir edə biləcək bilgilərə malik olmalıdırlar. İcra hakimiyyətində işləyən vəzifəli şəxslər öz bilik və savadı ilə nümunə olmalı, ətrafdakılara düzgün fikir aşılamağı bacarmalıdırlar.

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Azərbaycan Respublikasında dövlət-din münasibətləri və əsas istiqamətlər", Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Milli-mənəvi dəyərlərin təbliği və tolerantlıq mühitinin formalaşmasında vətəndaş cəmiyyəti təsisatlarının rolu", Prezidenti Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyevin "Azərbaycanda dövlət-din münasibətlərinin qanunvericilik bazası" mövzusunda çıxışları dinlənilib.



# Dini radikalizmlə mübarizə mövzusunda toplantı baş tutub

Fevralın 10-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun iştirakı ilə Bakı şəhər Baş Polis İdarəsində şəxsi heyət ilə görüş və məlumat mübadiləsi həyata keçirilib.

Tədbiri giriş sözü ilə açan Bakı şəhər Baş Polis İdarəsinin (BŞBPİ) rəis müavini, general-mayor Elxan Həsənov görüşün əhəmiyyətini yüksək qiymətləndirərək ölkəmizdə multikultural dəyərlərin, tolerantlığın gündən-günə möhkəmləndiyini, bu sahədə maarifləndirmə, o cümlədən dövlət-din münasibətlərini tənzimləyən qanunların tələblərinin həyata keçirilməsi istiqamətində Daxili işlər nazirliyinin Bakı şəhər Baş Polis idarəsi tərəfindən keçirilən məqsədyönlü tədbirlər və bu tədbirlərin bundan sonra da xüsusi həssaslıq və peşəkarlıqla davam etdirilməsinin vacibliyini, eləcə də, tövsiyə və tapşırıqlarını iştirakçıların nəzərinə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək, Azərbaycandakı mövcud dini durum, dövlətin bu sahəyə qayğısı, ölkəmizdə radikalizm meyillərinin yaranmasının səbəbləri, bu meyillərin yayılmasında maraqlı olan qüvvələr haqqında məlumat verib. Görüşdə, həmçinin, radikalizmə meyilli şəxslərin fəaliyyət metodologiyası, istifadə etdikləri üsullar, vasitələr və onlara qarşı mübarizə taktikası barədə məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Eyni zamanda, ölkəmizdə dini ekstremizmə qarşı keçirilən çoxşaxəli maarifləndirmə tədbirləri barədə iştirakçıları məlumatlandırıb, aidiyyati dövlət qurumları ilə qarşılıqlı, koordinasiyalı fəaliyyətin, məlumat mübadiləsinin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb.

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Hikmət Eyvazov Azərbaycanda tarixən mövcud olmuş və bu gün də davam edən, dünyaya nümunə ola biləcək tolerantlıq mühitindən söz açaraq, bu amildən sui-istifadə etməyə cəhd göstərən bəzi qeyri-ənənəvi dini cərəyan mənsublarının zərərli fəaliyyətinə diqqəti cəlb edərək, DİN-in DQİDK və digər qurumlarla birgə həyata keçirdiyi profilaktik tədbirlər barədə geniş məlumat verib.

Tədbirin sonunda görüş iştirakçılarının sualları cavablandırılıb.

# Milli İcmaların Gənclər Təşkilatlarının Koordinasiya Şurasının üzvləri ilə görüş olub

**Fevralın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Azərbaycanda Yaşayan Milli İcmaların Gənclər Təşkilatlarının Koordinasiya Şurasının üzvləri ilə görüş keçirilib.**

Yəhudi, rus, tatar, ukrayna, yunan, polşa, kazak kimi icmaların gənclər təşkilatlarının sədrlərindən ibarət göstəriblər. Başqa dinlərə və xalqlara münasibətdə dözümlülüyün, onlarla yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamağın xalqımızın xarakterik xüsusiyyəti olması ilə yanaşı, həm də dövlət siyasətinin əsas tərkib hissəsi olduğunu xatırladan Komitə sədrinin müavini bu gün Azərbaycanda Prezident İlham Əliyevin diqqət və qayğısı nəti-



Koordinasiya Şurasının üzvlərini salamlayan Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov DQİDK-nın fəaliyyəti, ölkəmizdə mövcud dini durum, tolerant və multikultural mühit barədə görüş iştirakçılarına geniş məlumat verib.

Müxtəlif dini konfessiyaların Azərbaycanda yaşayış və fəaliyyət şəraitindən danışan Gündüz İsmayılov ölkəmizdə tarixən formalaşmış multikultural və tolerant ənənələrin səbəblərini açıqlayıb. O deyib ki, tarix boyu Azərbaycan ərazisində etnik və dini icmalar arasında möhkəm dostluq və qardaşlıq əlaqələri olub və milli, irqi, dini ayrı-seçkiliyə yol verilmədən müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində fəaliyyət cəsində məscidlərlə bərabər, kilsə və sinaqoqların da təmir-bərpa edildiyini diqqətə çatdırıb.

Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının (AGAT) sədri Nərgiz Xələf Azərbaycanda Yaşayan Milli İcmaların Gənclər Təşkilatlarının Koordinasiya Şurasının yaranma səbəblərindən danışıb. N.Xələf qeyd edib ki, onlar Azərbaycanın multikultural və tolerant dəyərləri ilə dünyada nümunə ölkə olduğunu əsas götürərək, AGAT olaraq 16 noyabr 2009-cu ildə Beynəlxalq Tolerantlıq Günündə Azərbaycanda Yaşayan Milli İcmaların Gənclər Təşkilatlarının Koordinasiya Şurasını yaradıblar və ötən müddət ərzində fəaliyyətləri ilə bu ideyanın nə qədər uğurlu olduğunu təsdiqləyiblər.

# Dövlət Komitəsinin sədri Beynəlxalq Multikulturalizm qış məktəbinin iştirakçıları ilə görüşüb

Fevralın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbinin müxtəlif ölkələrdən olan iştirakçıları ilə görüşüb.

Mübariz Qurbanlı bildirib ki, bu gün dünyada multikulturalizmin alternativi yoxdur. Tarixən tolerant və multikultural dəyərləri üstün tutan, əhalisinin 96 faizini müsəlmanlar təşkil edən Azərbaycanda bütün dinlərin nümayəndələri – müsəlman, xristian, yəhudilər əsrlərdir sülh və qardaşlıq şəraitində yaşayır. Azərbaycan Multikulturalizm modelinin dünyaya nümunə ola biləcəyini vurğulayan Komitə sədri ölkəmizdə İslam dininin müxtəlif məzhəbləri arasında həmrəylik olduğunu, Cənubi Qafqazın ən böyük məscidi sayılan Heydər məscidində vəhdət namazlarının qılındığını diqqətə çatdırıb.



Komitə sədri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi, eləcə də həyata keçirilən bütün bu işlər multikulturalizmin dövlət siyasətində prioritet olmasının, Azərbaycanda müxtəlif konfessiyalar və etnik birliklərin dostluq, qardaşlıq şəraitində yaşamasının, ölkəmizdə yüksək multikultural mühitin mövcudluğunun göstəricisidir. Azərbaycanda dövlət siyasətinin tolerant mühiti dəstəklədiyini diqqətə çatdıran Mübariz Qurbanlı qeyri-islam dini icmalara dövlət tərəfindən mütəmadi maliyyə yardımı göstərildiyini, məscidlər, sinaqoqlar və kilsələrin mavi yanacaqla təminatda güzəştlər əldə etdiklərini deyib.

Mübariz Qurbanlı qeyd edib ki, dünyanın 30 ölkəsində milli, etnik, dini zəmində toqquşmalarda son 15 ildə ölənlərin sayı orta hesabla 2,5 milyona çatıb, ən azı, 50 milyon insan isə öz torpağından didərgin düşüb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə iştirakçılara geniş məlumat verən, bu münaqişə nəticəsində ərazilərimizin 20 faizinin işğal olunduğunu, 1 milyon azərbaycanlının öz doğma yurd-yuvasından didərgin düşdüyünü vurğulayan Mübariz Qurbanlı ermənilərin işğal etdikləri ərazilərdə tarixi və dini abidələrimizi məhv etdiklərini bildirib. Komitə sədri dünyadakı bütün problemlərin həllinin dinlər, sivilizasiyalar arası dialoqlardan, digər dinlərin, dillərin, müxtəlif mədəniyyətlərin, eləcə də müxtəlif irqlərin nümayəndələrininə bərabər münasibətin, hörmətin göstərilməsindən - multikulturalizmdən asılı olduğunu deyib.

Qeyd edək ki, 2015-ci ilin yaz və payız semestrlərində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrin, nüfuzlu elm adamlarının qatıldıqları Beynəlxalq Multikulturalizm qış məktəbinə Rusiya, İsveçrə, Ukrayna, Türkiyə, İtaliya, Portuqaliya, Polşa, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva, İndoneziya, Yaponiya və Almaniyanın ali təhsil ocaqlarından 43, Azərbaycanın yerli universitetlərindən 12 nəfər olmaqla, ümumilikdə 55 tələbə, eləcə də yerli və xarici mütəxəssislər qatılıb.

# Polis Akademiyasının zabit heyəti və müdavimlərlə görüş keçirilib



Fevralın 3-də Polis Akademiyasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Akademiyanın zabit heyəti və müdavimlərlə görüş keçirib. Tədbiri giriş sözü ilə açan Akademiyanın rəisi, general-mayor Nazim Əliyev görüşün əhəmiyyətini yüksək qiymətləndirərək bildirib ki, ölkəmizdə hər kəsin dini əqidəsini ifadə etmək və yaymaq hüququnun, bütövlükdə konstitusion normalarla tənzimlənən vicdan azadlığının tam bərqərar olunması daim diqqət mərkəzindədir və dövlətimizin vacib saydığı prioritet istiqamətlərdəndir. Mövcud qanunvericilik, milli və ictimai təhlükəsizlik maraqları rəhbər tutulmaqla vicdan azadlığından sui-istifadə cəhdlərinin, dini radikalizmin, fanatizmin, ekstremizmin qarşısının alınması istiqamətində daxili işlər orqanları tərəfindən qətiyyətli tədbirlər həyata keçirilib və hazırda da bu işlər davam etdirilməkdədir. O bildirib ki, yaxın günlərdə Akademiyada müdavimlərin Azərbaycandakı mövcud multikultural dəyərlərin, tolerantlıq modelinin mahiyyətinin daha da dərindən öyrənilməsi məqsədilə Multikulturalizm fənninin tədrisinə başlanılacaq.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək, görüşün maarifləndirmə, o cümlədən müdavimlərin milli-mənəvi dəyərlərimizə bağlılığı, ölkəmizdə mövcud tolerant mühitin bundan sonra da qorunması baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıb. Azərbaycandakı mövcud dini durum, dövlətin bu sahəyə qayğısı, ölkəmizdə radikalizm meyillərinin yaranmasının səbəbləri, bu meyillərin yayılmasında maraqlı olan bəzi daxili və xarici qüvvələr haqqında məlumat verib. O, çıxışında Azərbaycanda tolerantlığın ən nümunəvi formasının mövcudluğu, bu il ölkəmizdə "Multikulturalizm ili" ilə əlaqədar keçiriləcək kompleks tədbirlər barədə məlumatlar verib, müdavimlərə gələcək fəaliyyətlərində istifadə üçün qeyd olunan dəyərlərin dərindən mənimsənilməsini tövsiyə edib.

Görüşün sonunda iştirakçıların sualları cavablandırılıb və fikir mübadiləsi aparılıb.

## OXUCUMUZ YAZIR Ki...

Azərbaycanın coğrafi mövqeyi və əhalisinin etnik tərkibi burada tarix boyu müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bir çox dinlər və inanclar ölkəmizdə bu və ya digər dərəcədə yayılmış, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Ancaq bu hal ölkədəki tolerantlıq mühitinə xələl gətirməmiş, tarixən qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Son dövrlər ölkəmizdə gedən inkişaf bütün sahələrdə olduğu kimi, din sahəsində də özünü göstərmişdir. Azərbaycanın istənilən bölgəsinə diqqət yetirsək, bunu açıq-aydın görərik. Hətta etnik qrupların çoxluq təşkil etdiyi bölgələrdə belə, heç bir milli-dini ayrı-seçkilik və qarşıdurmanı sezmək mümkün deyil. Şübhəsiz ki, bu da Ümummilli Liderimiz Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinin uğurlu nəticəsidir. Ulu Öndərin din sahəsinə göstərdiyi həssas yanaşma bu gün Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

Mənim yaşadığım Masallı rayonu da bu sadaladıqlarıma bariz nümunədir. Belə ki, bu gün rayonumuzda olan inkişaf hər sahədə, o cümlədən din sahəsində də özünü göstərir. Görülən dini maarifləndirmə tədbirləri nəticəsində mövcud tolerantlıq qorunub daha da inkişaf etdirilmiş, yad təsirlərin qarşısı alınmışdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən çap olunan kitablar, "Cəmiyyət və Din" qəzeti, o cümlədən "Dövlət və Din" jurnalı bölgə əhalisinin dini radikalizm, qeyri-ənənəvi cərəyanlar, mövhumatçılıq, dövlət-din münasibətləri, ənənəvi İslam, tolerantlıq, dinlərarası və məzhəblərarası dostluq və s. kimi aktual mövzularda daha dəqiq məlumatlar əldə etməsinə şərait yaratmışdır.

Eləcə də, rayonumuzda olan din xadimləri, icma sədrləri də insanların düzgün istiqamətlənməsində müəyyən işlər görürlər. Bununla belə, onlar dini radikalizmin mahiyyəti, bu cür cərəyanların yayılmasının səbəbi və vətənpərvərlik mövzusunda moizələrə az yer verirlər. Din xadimlərimizin qeyd olunan mövzulara daha çox yer ayırması dindarlar, xüsusilə də məscidə gələn gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında, dini radikalizm və ekstremizmin zərərləri barəsində maariflənməsində, mövhumat və xurafatın qarşısının alınmasında böyük rol oynacayacaqdır.

Mən bir vətəndaş olaraq Prezidentimizə və bu işdə əməyi keçən insanlara öz təşəkkürümü bildirirəm, onlara gələcək işlərində uğurlar arzulayıram. Və əminəm ki, ölkəmiz bundan sonra da hər sahədə olduğu kimi, din sahəsində də uğurlarını davam etdirəcək, möhkəm təməllər üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsası heç bir vəchlə sarsılmayacaqdır.



***Nəzərov Mərdan,***
***Masallı rayonu,***
***Ərkivan qəsəbə sakini***

# Şirvanda "Dini radikalizmə qarşı mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda tədbir keçirilib



Fevralın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Şirvanda "Dini radikalizmə qarşı mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Şirvan şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Samit Abıyev, Şirvan şəhərindən olan dindarlar və ağsaqqallar iştirak ediblər.

Şirvan Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov tədbiri giriş sözü ilə açaraq, dövlətimizin dinə qayğısından danışıb.

Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycanın çoxkonfessiyalı bir ölkə olmasına baxmayaraq, ölkəmizdə tarixən dini tolerantlıq mədəniyyəti yüksək olub. S.Salahlı vurğulayıb ki, dövlətimizin ölkədəki müxtəlif millətlərin, mədəniyyətlərə, dinlərə verdiyi önəmin və göstərdiyi qayğının nəticəsidir ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilib.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Əvəz Mehrəliyev çıxışı zamanı ölkəmizdə dinə dövlət qayğısından bəhs edib. Tədbirdə çıxış edən digər natiqlər də dinimizə göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

# "Xalqımızın milli-dini adət-ənənələri və dini radikalizm"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə fevralın 25-də Bakı İslam Universitetinin Zaqatala filialında "Xalqımızın milli-dini adət-ənənələri və dini radikalizm" mövzusunda seminar-müşavirə keçirilib.



Zaqatala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elman Ramazanov tədbirdə çıxış edərək rayondakı dini durum, dini icmaların fəaliyyəti barədə məlumat verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov İslamı siyasi proseslərdən kənarda tutmağın vacibliyini bildirib. O, dünyada gedən siyasi proseslərdə dinin siyasiləşməsi amilinin hansı fəsadlara gətirib çıxardığını tədbir iştirakçılarının diqqətinə çatdırıb, bu cür prosesləri Azərbaycanda da həyata keçirmək istəyən qüvvələrin olduğunu söyləyib. Komitə sədrinin müavini Azərbaycandakı mövcud əmin-amanlıq mühitinin qorunub saxlanılmasının hər bir ölkə vətəndaşının ən ali məqsədlərindən biri olduğunu vurğulayıb.

Qeyd edilib ki, Azərbaycan xalqının ideoloji düsturu əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq olmalıdır: "Biz öncə azərbaycanlı, sonra ümmətçiyik. Dini təhlükəsizlik və multikultural təhlükəsizlik Azərbaycanın dövlət təhlükəsizliyinin mühüm elementidir".

Vurğulanıb ki, ölkəmizdə dövlətin dinə qayğısı daha da artırılacaq. Hər sahə olduğu kimi, bu sahə də ölkə rəhbərliyinin diqqətindədir.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Kamran Məmmədov çıxış edərək bildirib ki, ölkə vətəndaşları dini mənsubiyyətindən asılı olmayaraq dövlətin qayğısı və himayəsi altındadır. Prezident İlham Əliyev dini dəyərlərimizə böyük önəm verir.

# Şəkidə dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işlər müzakirə edilib

Dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işlər və qarşıda duran vəzifələr fevralın 24-də Şəkidə keçirilən bölgə seminar-müşavirəsinin əsas müzakirə mövzusu olub. Seminar-müşavirədə Azərbaycan Respublikası Baş Prokurorluğunun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin rəsmi şəxsləri, bu qurumların Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala və Balakən rayonlarındakı yerli strukturlarının rəhbər və məsul nümayəndələri iştirak ediblər.

Tədbiri Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov açaraq, dini ekstremizmə qarşı mübarizə sahəsində aidiyyəti strukturların fəaliyyətinin əlaqələndirilməsi baxımından seminarın əhəmiyyətini vurğulayıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək bildirib ki, bugünkü toplantı əvvəlkilərdən fərqli olaraq, əsasən icra strukturları və hüquq mühafizə orqanlarının bu sahədəki qarşılıqlı əlaqələrinin gücləndirilməsi baxımından diqqəti cəlb edir. Seminarın məqsədi ölkəmizdə bu sahədə mövcud vəziyyət barədə iştirakçılara ətraflı məlumat vermək, qarşıda duran vəzifələri müəyyənləşdirməkdən ibarətdir.

Bütün dinlərin insanları sülhə, həmrəyliyə, birgəyaşayışa çağırdığını deyən S.Heydərov vurğulayıb ki, bu gün dünyada geopolitik maraqlar çox təhlükəli həddə çatıb. Bəşəriyyət böyük təhlükə ilə üzləşib. Bunu Yaxın Şərqdə, Suriyada baş verən hadisələr bir daha sübut edir. Bu vəziyyəti yaradan qüvvələr, ölkələr artıq özləri də başa düşürlər ki, idarə olunan xaos yaratmaqla dünyada hökmranlığa sahib ola bilməyəcəklər. S.Heydərov bildirib ki, dünyada din amilindən siyasi vasitə kimi istifadə olunur. Belə bir zamanda vətəndaşlara əsl həqiqəti çatdırmaq üçün bütün imkanlar səfərbər edilməli, qabaqlayıcı tədbirlər görülməli, geniş maarifləndirmə işi aparılmalıdır.

Seminarda Baş Prokurorluğun idarə rəisinin müavini Novruz Hacıyev, Ədliyyə Nazirliyinin şöbə müdiri Şəhla Mehtiyeva, Şəki Şəhər Rayon Polis Şöbəsinin rəisi Əbülfət Rzayev, Dövlət Təhlükəsizliyi Xidmətinin Qəbələ rayon şöbəsinin rəisi Mövlud Abbasov və Zaqatala rayon prokuroru Əli Abdullayev çıxış edərək, dini ekstremizmə qarşı mübarizə sahəsində qəbul olunan qanunvericilik aktlarından danışıb, bu sahədə nəzərdə tutulan və həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Seminar-müşavirənin sonunda iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

## Bölgə xəbərlərimiz

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə bölgələrdə dini maarifləndirmə sahəsində tədbirlər davam etdirilir. Bu qəbildən tədbirlər Kürdəmir, Zaqatala, Quba, Neftçala və Lənkəran şəhərlərində baş tutmuşdur.

"Tolerantlıq nümunəsi Azərbaycan", "İslam və millilik", "XXI əsr multikulturalizmin Azərbaycan modeli", "Dünyəvi dövlətdə din; Azərbaycan modeli", və "Azərbaycan tolerantlıq məkanıdır" mövzusunda keçirilən tədbirlərdə DQİDK-nın Mərkəzi Aparat və bölgə şöbələrinin əməkdaşları, RİH-nin rəhbər şəxsləri, dini icma üzvləri, din xadimləri, ağsaqqallar və ziyalılar, rayon təhsil işçiləri və icra nümayəndələri iştirak ediblər.

Baş tutan tədbirlərdə İslamın ümumbəşəri, sülh və əmin-amanlıq dini olduğu, milli-mənəvi dəyərlərə baxışı barədə məlumat verilib, İslam və millilik münasibətlərinin düzgün nizamlanmasının əhəmiyyətindən danışılıb. Bildirilib ki, Azərbaycan dövlətinin məqsədi demokratik dövlət quruculuğu siyasətini, dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipini gənclər arasında təbliğ etməkdir.



Tədbirlərdə qeyd olunub ki, bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi siyasi kurs multikultural dəyərlərə əsaslanır və ölkəmizdə tolerantlıq ənənələri, mədəniyyətlər və sivilizasiyalar arası dəyərlərin təbliğinə mühüm töhfələr verir.

Natiqlər qeyd edib ki, bu gün tolerantlığın Azərbaycan modeli dünya üçün nümunə sayılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir, İslam həmrəyliyinin gücləndirilməsi və dini dəyərlərin müdafiəsi üçün beynəlxalq səviyyədə işlər görülür. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi, 2017-ci ildə isə Azərbaycanda keçirilməsi nəzərdə tutulan İslam Həmrəylik Oyunlarının təşkili məhz bu siyasətin bariz nümunəsidir.

# BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# GƏNCƏ



**_Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Gəncə bölgəsi üzrə şöbəsi 2015-ci ilin aprel ayında Qərb bölgəsi üzrə şöbənin əsasında yaradılmışdır. Şöbənin dislokasiyasına Gəncə və Naftalan şəhərləri, Samux, Göygöl, Daşkəsən, Goranboy, Kəlbəcər və Xocalı rayonları daxildir. Dahi Azərbaycan şairi Nizaminin yurdu - Gəncə şəhərinin də daxil olduğu bu diyar zəngin təbiət, mədəni və tarixi irsə malikdir. Təbii coğrafi şərait, bol sulu çayları, münbit torpağı, zəngin filiz yatağı, bitkiləri, təbii mağaralar və s. bu ərazidə hələ neolit dövründə ilk insanların məskunlaşmasına imkan vermişdir. Bölgədə Azərbaycan türkləri ilə yanaşı, ruslar, yəhudilər və digər azsaylı etnik qrupların nümayəndələri tarixən olduğu kimi, bu gün də mehriban və yaxın qonşuluq şəraitində yaşayırlar. Əhalinin əksər hissəsi müsəlmanlardan ibarət olsa da, digər dinlərin nümayəndələri də öz ibadətlərini sərbəst şəkildə yerinə yetirə bilirlər. Təqribən 700 minə yaxın əhalinin yaşadığı bu bölgədə 31 məscid, 17 pir-ziyarətgah, 1 xristian pravoslav kilsəsi var. Bunlardan 14 məscid (8-i təyinatı üzrə fəaliyyət göstərmir), 7 pir-ziyarətgah Gəncə şəhərində, 5 məscid, 2 pir Göygöl rayonunda, 1 məscid, 1 pir Samux rayonunda, 1 məscid, 4 pir Daşkəsən rayonunda, 10 məscid, 3 pir Goranboy rayonunda, 1 məscid Naftalan şəhərində yerləşir. Onlardan 14 məscid dini icması, o cümlədən Gəncə şəhər Aleksandr Nevski rus pravoslav kilsəsi dini icması DQİDK-da dövlət qeydiyyatından keçmişdir. Bundan başqa, Gəncə şəhərində 2 qeyri-islam (7-ci Günün Adventistləri və Xristian Baptistlər) dini icmaları ilkin qeydiyyatla fəaliyyət göstərirlər. 2015-ci ildə 3 dini icma ilkin qeydiyyatla fəaliyyət göstərdiklərindən özlərini ləğv edərək yenidən dövlət qeydiyyatından keçmək üçün müvafiq sənədləri hazırlayırlar. Həmçinin, Gəncə şəhər yəhudi dini icmasının sənədləri hazırlanaraq Dövlət Komitəsinə təqdim olunmuşdur._**

2015-ci il ərzində bölgədəki dini durum və dövlət-din münasibətlərinin tənzimlənməsi daim diqqətdə saxlanılmış, təbliğinə, nəşr və idxalına DQİDK tərəfindən razılıq verilməyən dini ədəbiyyatın yayılmasının qarşısı alınmış, bu məqsədlə bölgədə fəaliyyət göstərən ixtisaslaşdırılmış satış məntəqələrinə müvafiq inzibati orqanlarla birlikdə baxış keçirilmişdir. Qeyd etmək yerinə düşər ki, bölgədə dini məzmunlu materialların satışı üzrə 2 ixtisaslaşdırılmış mağazaya Dövlət Komitəsi tərəfindən lisenziya verilmişdir. Bununla yanaşı, zərərli təriqət və cərəyanların qarşısının alınması məqsədilə özündə milli-mənəvi dəyərlərimizi əks etdirən, Dövlət Komitəsinin dəstəyi ilə çap edilmiş 30 adda 3 mindən çox ədəbiyyat bölgə dindarlarına, əksəriyyəti tələbələr olmaqla əhaliyə paylanılmışdır. Həmçinin Dövlət Komitəsinin təsis etdiyi "Dövlət və Din" ictimai fikir toplusu, "Cəmiyyət və Din" qəzeti də mütəmadi olaraq dini icmalara paylanılır.

Bütün bunlarla yanaşı, bölgədə dini durumun sabitliyinin pozulmasında maraqlı olan şəxslər haqqında məlumatlar əldə edilmiş, onlar barəsində qanunvericiliyə müvafiq tədbirlər görülmüşdür. Qeyd edək ki, ötən il noyabrın 26-da Nardaranda baş vermiş məlum hadisələrlə bağlı 11 nəfər Gəncə şəhər sakininin də şəxsi evlərinə yerli hüquq-mühafizə orqanları ilə birgə baxış keçirilmiş, onların hər birindən silah-sursatla yanaşı, külli miqdarda zərərli dini ədəbiyyat götürülərək, ekspertiza üçün Dövlət Komitəsinə göndərilmişdir. Son dövrlərdə görülən tədbirlər nəticəsində bölgəyə daxil olan məscidlərdə dini durum əhəmiyyətli dərəcədə sabitləşmişdir. Məsələn, ötən ilin oktyabr ayında keçirilmiş Aşura mərasimi zamanı Gəncə şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə əhali ayrılmış xüsusi nəqliyyat vasitələri ilə "İmamzadə" ziyarətgah kompleksinə aparılmışdır.

Bildiyimiz kimi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi son zamanlar maarifçiliyin keyfiyyətinə diqqəti artıraraq, ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktuallıq kəsb edən mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil etməkdədir. Həmin seminar-treninqlərdən biri də 2015-ci ilin aprel ayında Gəncə şəhər Polis İdarəsində baş tutmuşdur. Belə ki, DQİDK-




nın və Daxili İşlər Nazirliyinin (DİN) təşkilatçılığı, Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının iştirakı ilə Gəncə, Samux, Göygöl və Daşkəsən şəhər Polis İdarəsi əməkdaşları üçün "Dini radikalizmə qarşı birgə mübarizə" adlı tədbir keçirilmiş, tədbirin sonunda Dövlət Komitəsinin razılığı ilə çap olunan ədəbiyyat polis əməkdaşlarına paylanılmışdır.

Dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, müvafiq ədəbiyyatla təminatı və bölgə vətəndaşlarının problemləri ilə yaxından maraqlanmaq üçün Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının avqust ayında bölgəyə səfəri (Daşkəsən rayonuna) dini vəziyyətə müsbət təsir göstərmişdir. Eyni zamanda, Komitə sədrinin bölgədə "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda təşkil olunan regional konfransda çıxışı, yerli dindarlar, ziyalılar, ağsaqqallar və cəmiyyətin müxtəlif təbəqəsindən olan digər insanlarla görüşü dövlət-din münasibətlərinin tənzimlənməsi, ölkədə və bölgədəki dini durumun hərtərəfli təhlili baxımından işimizə öz töhfəsini vermişdir. Təşkil olunan bu cür tədbirlərdə fərqli din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik, qarşıdurma, zorakılıq hallarına yol verilməməsi, dini icmaların fəaliyyətində tolerantlığın gücləndirilməsi, cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması məqsədilə maarifləndirici mövzularda çıxışlar olmuşdur.

Ötən il Gəncə şəhərindəki ali məktəblərdə yerli İcra Hakimiyyəti və hüquq-mühafizə orqanları ilə birgə dini maarifləndirmə sahəsində keçirilmiş tədbirlər tələbələr və gənclər arasında böyük marağa səbəb olmuş, hətta bir neçə tələbə müəyyən tədbirlərdə bölgə şöbəmizlə sıx əməkdaşlıq etmişdir. Bunlardan başqa, şöbə QHT sektoru ilə əməkdaşlığı da genişləndirmişdir. Buna misal olaraq, "Qarabağ Seyid Ocaqları" İctimai Birliyi ilə birgə "Milli adət-ənənələrimiz və müasir çağırışlar", "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi ilə birgə "Gənclər arasında azərbaycançılığın təbliğində dini maarifçiliyin rolu" mövzusunda keçirilən tədbirləri göstərə bilərik. O cümlədən, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili Aparatının (Ombudsman) təşkilatçılığı ilə "Sülh Aylığı" çərçivəsində Samux şəhər "Əbülfəz Abbas" məscidində tədbir keçirilmişdir. Başqa bir tədbir isə "Uşaq Hüquqları Aylığı" çərçivəsində baş tutmuşdur. Keçirilən görüşlər, seminar-treninqlər milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, ölkəmizdə tarixən mövcud olan tolerantlıq və multikultural ənənələrinin inkişaf etdirilməsi, o cümlədən Vətənə, dövlətə bağlılıq, dövlət atributlarına ehtiramın gücləndirilməsi baxımından əhəmiyyət daşımaqdadır.

2015-ci ildə ölkə başçısı cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizənin gücləndirilməsi məqsədilə fevral ayında Şəmkir rayonunda, aprel ayında Gəncə şəhərində, noyabr ayında isə Samux rayonunda yerli İcra Hakimiyyəti və daxili işlər orqanları əməkdaşları ilə birgə "Narkomaniyaya qarşı mübarizədə dini dəyərlərin təbliği" adlı tədbirlər keçirilmişdir.

Həmçinin, DQİDK-nın dəstəyi ilə ötən il Ramazan ayında bölgəmizə daxil olan 2 dini icma - Gəncə şəhər Qazaxlar məscidi dini icması və Samux rayon Samux şəhər müsəlmanları dini icması tərəfindən Komitə əməkdaşlarının iştirakı ilə təşkil edilmiş iftar süfrələri də dini maarifləndirmə baxımından mühüm rol oynamışdır. Milli-mənəvi dəyərlərimizin, dini radikalizmin, ekstremizmin, ayrı-seçkiliyin ortaya çıxardığı zərərlərin təbliği, ölkədəki tolerant mühitin qorunması, gənclərdə əxlaqi-mənəvi keyfiyyətlərinin yüksəldilməsi, vətənpərvərlik hisslərinin aşılanması baxımından bu cür tədbirlər çox önəmlidir.

Elə bunu nəzərə alaraq, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı ilə dini icmalara maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə 2,5 milyon manat vəsaitin ayrılması bölgədə maarifləndirmə işlərində yeni mərhələ açmışdır. Belə ki, bölgəmizdəki iki dini icmaya müxtəlif layihələrin həyata keçirilməsi məqsədilə vəsait verilmişdir. Həmin dini icmalar bölgədəki gənclərin radikal dini təsirlərdən qorunması, həmçinin zərərli vərdişlərlə mübarizə mövzularına həsr olunmuş layihələri uğurla həyata keçirmişlər. Layihələrin həyata keçirilməsində dini ekspertlər yaxından iştirak etmiş, Dövlət Komitəsinin Mərkəzi Aparatının və şöbənin əməkdaşları metodiki dəstək göstərmişlər. Dini icmalar tərəfindən keçirilmiş 13 tədbir əsasən dindarların, bəziləri isə geniş ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutmuşdur. Ayrılmış vəsait hesabına çap olunmuş dini ədəbiyyat tədbir iştirakçılarına paylanılmış, tədbirlər yerli və mərkəzi mətbu orqanlarda işıqlandırılmışdır.

Bildiyimiz kimi, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyev sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, xalqın keçmişinə, milli adət-ənənələrinə,

⇨ 13

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# GƏNCƏ





12⇦ dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılmışdır. Bu gün Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin və onun xanımı Mehriban Əliyevanın da digər sahələrlə yanaşı, dinimizə və mənəviyyatımıza göstərdikləri diqqət və qayğı göz qabağındadır. Dövlətin din sahəsinə qayğısına dəlalət edən məsələlərdən başlıcası müstəqillik illərində dini ibadət yerlərinin sayının sürətlə artmasıdır. Belə ki, təkcə son 11 il ərzində 140-a yaxın məscid tikilmiş, 80 məscid əsaslı şəkildə bərpa edilmişdir. Bu sahədə atılan növbəti addımlardan biri də VIII əsrə aid tarixi memarlıq abidəsi - Gəncə "İmamzadə" ziyarətgah kompleksinin təmir-bərpa edilməsidir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan dövlət başçısının Sərəncam və göstərişləri sayəsində insanların inam və inanc yeri kimi üz tutduğu "İmamzadə" ziyarətgah kompleksi məhz bu gün yeni, gözəl görkəm almışdır.

Prezident İlham Əliyev kompleksin milli memarlıq ənənələrimizə uyğun şəkildə bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması məqsədilə müxtəlif illərdə dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan kifayət qədər vəsaitin ayrılması barədə sərəncamlar imzalamış, özü də təmir-bərpa prosesi dövründə üç dəfə kompleksə gələrək işlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün tapşırıq və tövsiyələrini vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il fevralın 17-də bir daha Gəncəyə səfər edərək respublika ictimaiyyətinin nümayəndələri və din xadimləri ilə görüşmüş, "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuş, mərasimdə nitq söyləmişdir.

Onu da bildirək ki, "İmamzadə" ziyarətgah kompleksinin kitabxanası üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi rəhbərinin göstərişi əsasında 258 adda 1000-dən artıq kitab hədiyyə edilmişdir.

Bütün görülən işlər bölgə əhalisinin dini radikalizm, qeyri-ənənəvi dini cərəyanlar, mövhumatçılıq, dövlət-din münasibətləri, ənənəvi İslam, tolerantlıq, dinlərarası və məzhəblərarası dostluq və s. kimi aktual mövzularda daha dəqiq məlumatlar əldə etməsinə şərait yaratsa da, bölgəmizdə multikultural və tolerantlıq ənənəsini qorumaq, milli kimliyimizə söykənən sağlam dini mühiti daha da inkişaf etdirmək üçün görüləcək işlər və atılacaq addımlar çoxdur. Şübhəsiz ki, görülmüş işlərlə yanaşı, şöbəmiz qarşısında həlli vacib olan bəzi məsələlər qalmaqdadır. Gəncə bölgəsi üzrə şöbə cari ildə bu sahədə var gücü ilə fəaliyyətini davam etdirəcəkdir.






*Asif ƏLİYEV,*
*DQİDK-nın Gəncə bölgəsi*
*üzrə şöbəsinin müdiri*

## Dini maarifləndirmə layihəsi çərçivəsində

Azərbaycan dövləti müxtəlif dini inanclara sahib vətəndaşlarımız arasında mövcud tolerantlığın gücləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsinə hər zaman yüksək diqqət və qayğı göstərmişdir. Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərimizin, ümumilikdə dinimizin təbliği istiqamətində atdığı addımlardan biri də ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dövlət başçısı cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamıdır. Həmin ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Dini Qurumalarla İş üzrə Dövlət Komitəsinə ayrılmış 2.5 milyon manat vəsait mərhələli şəkildə xüsusi layihələr çərçivəsində dini icmalara paylanılır. İndiyədək 76 İslam, 19 qeyri-İslam dini icmasına maddi vəsait ayrılıb. Hazırda layihələr çərçivəsində bölgələrdə tədbirlər davam etdirilir. Bu qəbildən tədbirlər Ağdam rayon Xındırıstan kənd məscidi, Bərdə rayonu "Uğurbəyli" kənd məscidi, Qusar rayonu Avaran kənd məscidi, Şəmkir "Cümə" məscidi, Abşeron rayonu Güzdək qəsəbəsi "Rəsulullah" məscidi, Sabirabad rayonu Bulaqlı kənd məscidi, Göyçay şəhər "Əbülfəzlil Abbas" məscidi, Şəmkir şəhər "Cümə" məscidi, Balakən şəhər "Mərkəzi Cümə Məscidi", Şamaxı şəhər "Cümə" məscidi, Qazax Cümə məscidi, Lerik rayonu Gürdəsər kənd məscidi, Sabirabad rayonunun Bulaqlı kənd məscidi dini icmaları tərəfindən həyata keçirilib.




"Qəhrəmanlar unudulmur!", "Dindarların radikal təsirlərdən qorunması", "İslam qardaşlıq dinidir", "Dini radikalizm və ekstremizmin törətdiyi fəsadlar", "Multikulturalizm milli-mənəvi dəyərlər sistemimizin tərkib hissəsi kimi", "Dini fanatizm və ekstremizm: multikultural cəmiyyət üçün təhlükə", "Milli-mənəvi dəyərlərin təbliğində gənclərin rolu", "Dini radikalizmə qarşı mübarizə yolları və milli-mənəvi dəyərlərimizin təbliği", "Multikultural dəyərlərin təbliğində dindarların və dini icmaların rolu" mövzularında keçirilmiş tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları, din xadimləri, ağsaqqallar, ziyalılar, gənclər və dindarlar iştirak ediblər.




Çıxışlarda dövlət-din münasibətləri, mövcud dini durum, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və multikulturalizm ənənəsi, eyni zamanda dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsinin əhəmiyyəti barədə ətraflı danışılıb. Həmçinin dini maarifləndirmə sahəsində görülən işlərin vacibliyi, milli-mənəvi dəyərlər və radikalizmə qarşı mübarizə metodları müzakirə edilib. Qeyd olunub ki, layihələr çərçivəsində sağlam dini biliklərə söykənən silsilə maarifləndirmə tədbirləri həyata keçirilməkdədir. Dini radikalizmin tarixi kökləri və onun ictimai münasibətlərə, milli-mənəvi dəyərlərimizə zərərlərinin də müzakirə mövzusu olduğu tədbirlərdə dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayrılması barədə Sərəncamı dövlətin dinə qayğısının çoxsaylı nümunələrindən biri olduğu vurğulanıb.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanın din xadimləri Xocalı soyqırımı ilə bağlı beynəlxalq təşkilatlara müraciət ediblər



**Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakıdakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev dünya dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara və insan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət ünvanlayıblar.**

Müraciətdə deyilir: "Azərbaycan şəhəri Xocalıda törədilmiş soyqırımının 24-cü ildönümü ərəfəsində biz növbəti dəfə dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün dünya ictimaiyyətinə müraciət edirik. Əminik, elə bir xalq, elə bir din ola bilməz ki, ümumbəşəri mənəvi dəyərlərə zidd olan zorakılıq, qətl, təcavüz kimi qeyri-insani cinayət əməllərinə haqq qazandırsın.

Tarixi fakt ondan ibarətdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə minlərlə dinc, silahsız, müdafiəsiz Xocalı sakini erməni işğalçılarının qəfil və amansız basqınına məruz qalıb. 613 nəfər xüsusi qəddarlıqla qətlə yetirilib, qocalara, uşaqlara, hamilə qadınlara belə rəhm olunmayıb. Xocalı şəhəri, eləcə də Kəlbəcər rayonunun Ağdaban kəndi dünya xəritəsindən silinib, 150 nəfər itkin düşüb, 1275 nəfər əsir götürülərək ağır işgəncələrə məruz qalıb, vəhşicəsinə qətlə yetirilmiş insanların cəsədlərinin üzərində ağlasığmaz təhqiramiz hərəkətlər edilib".

Bildirilir ki, zaman-zaman Azərbaycan xalqına qarşı etnik təmizləmə, maddi və mənəvi terror gerçəkləşdirmiş erməni ekstremistləri ərazimizin 20 faizini işğal edib, bir milyondan artıq azərbaycanlını doğma yurdlarından didərgin salıb, qəsb etdikləri torpaqlarda vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Xocalıda həyata keçirdikləri məqsədyönlü soyqırımı aktı isə onların törətdikləri vəhşiliklərin kulminasiya nöqtəsi olub. Tarixi reallıq kimi Xocalı faciəsi – Holokost, Hernika, Xatın soyqırımları kimi insanlığa qarşı törədilmiş qətliamların bir rəmzidir.

"Təəssüf ki, iyirmi ildən artıq müddət keçməsinə baxmayaraq, erməni terrorçuları törətdikləri cinayətlərə görə hələ də cəza almayıb, BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin tələblərini bu günədək yerinə yetirməyiblər. Azərbaycanın illərdir beynəlxalq ictimaiyyətə etdiyi müraciətlərə istinadən dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatları Xocalı soyqırımını tanısa da, Azərbaycan dövlətinin haqqın və tarixi ədalətin bərpası yönündə apardığı məqsədyönlü siyasət davam etməkdədir. Dünya azərbaycanlılarının dəstəyi ilə həyata keçirilən tədbirlər, o cümlədən "Xocalıya ədalət!" kampaniyası Azərbaycan həqiqətlərinin beynəlxalq səviyyədə yayılmasında, qəsbkarın əsl simasının açılmasında önəmli rol oynayır", - deyə müraciətdə qeyd edilir.

Diqqətə çatdırılır ki, bu gün dünyada baş verən bir çox ictimai cinayətlərin təməlində bəzi dövlətlərin problemlərə münasibətindəki ikili standartlar, rasizm, antisemitizm, ksenofobiya, islamofobiya kimi təhlükəli meyillər dayanır. Bu yanaşma səbəbindən törədilən qətliamlar layiqli qiymətini almayaraq yeni-yeni bəşəri cinayətlərə yol açır, dünyanın müxtəlif bölgələrində soyqırımların təkrarlanmasına, miqrant köçkünlər ordusunun fəlakətlərinə zəmin yaradır.

Dünyanı hazırda bürüyən miqrant böhranı Azərbaycanın vaxtilə üzləşdiyi bir milyonluq qaçqın və məcburi köçkün probleminə biganə münasibət bəslənməsinin, soydaşlarımızın erməni ekstremistləri tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmasının hesabının sorulmamasının fəsadlarıdır. O zamanlar Azərbaycan məcburi köçkün soydaşlarımızın sosial problemlərini öz imkanları daxilində həll edə bildi və bu, dövlətimizin mənəvi gücünün bariz nümunəsi oldu.

Müraciətdə deyilir: "Biz, Azərbaycanda yaşayan müxtəlif konfessiyadan olan din xadimləri Vətənimiz Azərbaycanın ayrılmaz parçası olan Qarabağda torpaqlarımızın azad olması uğrunda həlak olmuş bütün şəhidlərin, o cümlədən, Xocalı şəhidlərinin əziz xatirəsini daima uca tutur, bütün dünya xalqlarına sülh, səadət, əmin-amanlıq və rifah diləyirik. Hər birimizin Rəbbimiz, bəşəriyyət qarşısında vicdan naminə müqəddəs borcumuz ədalətin bərqərarına nail olmaqdır. Odur ki, üzümüzü bir daha dünyanın dini liderlərinə, parlamentlərinə, beynəlxalq təşkilatlara və insan hüquqları üzrə Avropa Məhkəməsinə tutaraq, onları Azərbaycan xalqına qarşı erməni ekstremistlərinin təcavüzünə və vəhşiliklərinə prinsipial siyasi, hüquqi qiymət verməyə, Xocalıda törədilən cinayəti soyqırımı aktı kimi tanımağa çağırırıq".

# Azərbaycan - müsəlman dövləti antisemitizmin əleyhinədir

**Avstraliyanın Pert şəhərində yəhudi icması tərəfindən nəşr olunan "The Maccabean" qəzetində cari ilin 22 yanvar tarixində "Azerbaijan: A muslim nation against antisemitism" başlıqlı məqalə dərc edilmişdir. Həmin məqalənin qeyri-rəsmi tərcüməsini diqqətinizə təqdim edirik.**

2015-ci ilin sona çatdığı ərəfədə Azərbaycanda, Bakıda oldum. Mən bu ölkənin İsrail və Amerika Birləşmiş Ştatları ilə dostluq münasibətini daha yaxşı anlamaq və dəyərləndirmək niyyətində idim.

Şabat üçün yemək axtarışına başlayaraq gəzintiyə çıxdım və əhalisinin 95 faizi müsəlmanlardan ibarət olan bir ölkədə və paytaxt şəhərdə, xüsusilə sakit küçələrin birində qapalı məkanda yerləşən, kənd təsərrüfatı məhsullarından tutmuş süfrəyə lazım olan bütün naz-nemətlərin satıldığı bir ərzaq mağazası tapdım. Digər günlərdə olduğu kimi, mən elə bir libasda idim ki, kənardan baxan mənim yəhudi olduğumu asanlıqla seçə bilərdi.

Bu kəskin fərqi qiymətləndirmək üçün fərqli bir təcrübə yaşayacağımı düşünürdüm. Lakin Bakıda təhlükəsizliyimə görə narahat olmaq qətiyyən ağlımdan keçmirdi. Tanımadığım insanlar mənə gülümsəyir, hətta bəziləri "Şalom" da deyirdi.

Şəhərin gözəl memarlıq nümunələri və ağaclarla əhatə olunmuş, həmçinin müəyyən dərəcədə Qüds şəhərinin Nahlaot məhəlləsini xatırladan bu hissəsi qədimlik və müasirliyin gözəl harmoniyasını özündə əks etdirir. Nahlaot kimi, Bakının bu dindar müsəlman məhəlləsində də insan özünü təhlükəsiz şəraitdə hiss edir. Bu, bəlkə də mühitin dindar olması və dinin digər şəxslərə qarşı müsbət və dəstəkləyici mövqedə dayanması fikri ilə bağlıdır. Lakin buranın Nahlaotdan bir fərqli cəhəti var idi: İsraildə insanları terrorçu avtomobillərin təhlükəsindən qorumaq üçün nəzərdə tutulmuş, maşın sürməyin mümkün olmadığı dar yolların daxili mühafizəsinə Bakıda ehtiyac duyulmurdu.

Bakı fərqli etiqadlara sahib vətəndaşların sağlam mədəni və dini müxtəlifliyinin mövcud olduğu nadir və perspektivli bir dövlətin paytaxtıdır. Bəzi media orqanları Azərbaycanın bu dərəcədə tolerant olmasının səbəbini onun dünyəvi ölkə olmasında görürlər. Lakin bu, olduqca dərin və qədim bir dəyərə səthi yanaşmadır. Azərbaycanın dini mühiti müxtəlif din və etiqada məxsus təmtəraqlı tədbirlərin və əsrarəngiz ibadətgahların səmərəliliyi ilə fərqlənir. Əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan, ənənələrə lazımi səviyyədə sadiq qalan və ailəcanlı bir cəmiyyətin yəhudi və xristian qonşulara bu dərəcədə yaxşı münasibət qura bilməsinin səbəbini anlamaq heç də çətin deyil. İnam, hörmət və mehribanlığı özündə birləşdirən dəyərlər müxtəlif etiqadlar arasındakı sərhədləri aşaraq bir-birini qarşılıqlı şəkildə qiymətləndirməyə yol açır.

Birləşmiş Ştatlardakı bütün fərqli yəhudi icmaları kimi, Azərbaycanda yaşayan 30 min yəhudi də aşkenazi, səfərad, hasidik və Azərbaycanın 2000 illik qədim tarixə malik dağ yəhudiləri ilə unikal şəkildə təmsil olunur. Onların hamısı eyni istəkləri paylaşır: əhatə dairəsini genişləndirmək, daha çox insanla əlaqə yarada bilmək və gəncləri yəhudilik dəyərlərinə kökləmək. Amerikadakı vəziyyətdən fərqli olaraq, antisemitizm onların heç vaxt həll etmək məcburiyyətində qalmadıqları bir problemdir. Bu xüsusi fikir mən həm Bakıda, həm də paytaxtdan cəmi 2 saatlıq məsafədə yerləşən Quba rayonunda yəhudilərin yaşadığı Qırmızı Qəsəbədə olarkən müxtəlif ravvinlər, icma rəhbərləri və tələbələr tərəfindən də ünsiyyət zamanı aydın şəkildə və dönə-dönə vurğulanmışdı.

Azərbaycan yəhudiləri hazırda onlar əleyhinə fəal yürüşlərin keçirildiyi və şüarların səsləndirildiyi bir çox dövlətlərdən, o cümlədən Birləşmiş Ştatlardan fərqli olaraq, burada təhlükəsiz şəraitdə yaşadıqlarını və onlara qarşı olan hörməti yüksək qiymətləndirirlər.

Növbəti həftələrdə Qüdsdə bir neçə Şabat keçirərək, bıçaqla, maşınlarla və hətta bombalarla amansız hücumların baş verə bildiyi açıq bazarda alış-veriş etmək riskini göz önünə aldım. Bakı üçün darıxdım və bir anlıq arzu etdim ki, kaş Qüdsdəki mövcud mənzərəni aradan qaldıra və buradakı hücum qorxusunu həmin gün Şabatdan yalnız bir neçə saat öncə Bakının ən dindar müsəlman məhəlləsində gəzərkən hiss etdiyim ruhi sakitliklə əvəz edə biləydim.

Həm Qüdsdəki, həm də Los-Ancelesdəki məktəblərdə, məhəllələrdə və beynəlxalq mediada dinlərarası harmoniya və müsbət multikulturalizm tədqiq edilməli və insanlara aşılanmalıdır. Azərbaycan Respublikasının çoxsaylı müttəfiqləri, zəngin nefti və tarixi ola bilər, lakin onun ən böyük təbii sərvəti bir-birini qəbul edə bilmək və hörmətlə yanaşmaq dəyəridir. Bunlar bütün dövlətləri dözümsüzlük və nifrətə qarşı gücləndirməyi bacaran əsas prinsiplərdir.

Daha çox konfessiyalar və onların rəhbərləri Azərbaycana gələrək buranı araşdırsa və mənim gördüklərimi müşahidə etsə, dinlərarası birlik üçün inam və ruhlandırıcı qüvvə sürətlə kök salar, daim zəfər çalan və hamı tərəfindən müdafiə olunan sülh fikri də təbliğ olunardı. Azərbaycanda bir çoxları bu arzuya "inşallah" deyərdi.

***Müəllif: İsrael Barouk***

# Azərbaycan tolerantlıq modelinin təqdir olunduğu bəyannamə qəbul edilib



**ABŞ-ın Yuta ştatının Senatı və Nümayəndələr Palatası fevralın 17-də Azərbaycanın tolerantlıq modelinin təqdir olunduğu bəyannamə qəbul edib.**

Senatın sədri, Nümayəndələr Palatasının spikeri, eləcə də digər qanunvericilər tərəfindən imzalanmış bəyannamə Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevə təqdim olunub.

Bəyannaməni təqdim edən senator Cin Deyvis Azərbaycanın 1918-ci ildə müsəlman Şərqində ilk demokratik və dünyəvi dövlət yaratdığını və qadınlara ilk dəfə seçki hüququ verdiyini qeyd edib. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın sürətlə inkişaf etdiyini bildirən senator ABŞ ilə Azərbaycan arasında strateji tərəfdaşıq münasibətlərinin qurulduğunu diqqətə çatdırıb. Sonra bəyannamə oxunub.

Bəyannamədə Azərbaycanın tarixi tolerantlıq ənənələrinə toxunularaq, burada qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı ifadə olunur. Həmçinin bildirilir ki, hazırda dünyanın müxtəlif bölgələrində dini nifrət, terrorçuluq, dözümsüzlük və ksenofobiya kimi halların artdığı bir dövrdə, Azərbaycan özünəxas tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təşkil edir.

Bəyannamədə vurğulanır ki, Azərbaycan rəhbərliyi belə mütərəqqi mühitin inkişaf etdirilməsində böyük rol oynamaqda və bu prosesləri müxtəlif vasitələrlə dəstəkləməkdədir.

Eyni zamanda, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunduğu və aprel ayında Bakıda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun keçiriləcəyi qeyd edilir və bildirilir ki, ABŞ tolerant və dünyəvi müttəfiqlərini dəstəkləməli, bu səpkidə Azərbaycanın tolerantlıq modelinin bütün dünyada tətbiqinə çalışmalıdır.



Utah State Legislature

CITATION

Honoring

Long-Standing Traditions of Interfaith Harmony in the Republic of Azerbaijan

WHEREAS, the Republic of Azerbaijan is a strong partner of the United States in the South Caucasus region bordering Iran, Russia, Turkey and Central Asia; and

WHEREAS, having ancient traditions of interfaith tolerance, inclusion and positive multiculturalism, the secular nation of Azerbaijan offers an environment where Muslims, Jews, and Christians enjoy peaceful coexistence and live in dignity, harmony and respect for each other, and

WHEREAS, Azerbaijan was home to one of the earliest Christian nations in the world, and the Christian community has helped shape Azerbaijan's history; and

WHEREAS, living near Christian and Muslim communities is a thriving Jewish community. Azerbaijan has provided a haven for Jews in times of persecution. Today the Jewish community is an integral part of Azerbaijan's economic, cultural and political life; and

WHEREAS, Azerbaijan is one of the few secular countries with a predominantly Muslim population that maintains close, friendly ties with the State of Israel. The three major religions have prospered because of the respect and tolerance of the Azerbaijani people, and because of the role the government has played in fostering the environment of interfaith tolerance and mutual acceptance in the country; and

WHEREAS, Azerbaijan sees diversity as one of the country's great strengths and virtues. Azerbaijan has created an environment that nurtures and promotes the ancient traditions of religious tolerance, and rejects extremism and hatred; and

UTAH STATE SENATE SEAL 1896

WHEREAS, Azerbaijan has established churches, synagogues, and cultural centers for different faiths; and financially supports all three religions without discrimination, and each is represented in all three branches of government; and

WHEREAS, Azerbaijan has repeatedly, over the course of the last decade, brought together religious leaders from the region and around the world to promote greatly needed interfaith dialogue. The year 2016 has been proclaimed a Year of Multiculturalism in Azerbaijan. In April 2016, Azerbaijan will host the United Nations Alliance of Civilizations Forum; and

WHEREAS, Azerbaijan's Consulate General in Los Angeles has built a remarkable relationship with the Church of Jesus Christ of Latter-Day Saints, co-hosting the largest ever Azerbaijan-LDS event under the motto "Musical Celebration of Tolerance and Interfaith Harmony"; and

WHEREAS, given the rising levels of intolerance, hate, terrorism and xenophobia in the world, it is important for the United States of America to support its tolerant and secular allies and consider the Azerbaijani model of interfaith acceptance and community engagement as a functioning example, and encourage this policy around the globe; and

NOW, THEREFORE, LET IT BE KNOWN that the Utah State Legislature hereby recognizes the long-standing traditions of interfaith tolerance, inclusion and harmony in Azerbaijan, and applaud their efforts to foster these traditions.

Presented February 17, 2016

Senate President Wayne Niederhauser

Senator Gene Davis

House Speaker Gregory Hughes

Representative Brian King

Representative Lynn Hemingway

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Qax rayonu Qum kənd**
**"Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 30 sentyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 499**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həmidov Həmid Lətif oğlu, Şahmalıyev Mehdi İmam oğlu, Baliyev Ceyhun Cəmil oğlu, Quşiev Hüseyn Əlican oğlu, Qurbanov Qasım Məmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. İmanov Musa Nurməhəmməd oğlu, Şahmalıyev Əziz Əhməd oğlu, Yusifov Fizuli Mehdi oğlu, Mirzəyev Cəmil Seyidəhməd oğlu, Ömərov Rizvan Ömər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Həmidov Həmid Lətif oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Şahmalıyev Əziz Əhməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 fevral 2016-cı il**

**Qax şəhər məscidi dini icması**
**Qeydiyyat tarixi: 17 iyun 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 406**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həbilov Elbrus Məhəmmədrasul oğlu, Məsimov Xalis Paşa oğlu, Məmmədov İlqar Əli oğlu, Mahmudov Cabir Rəcəb oğlu, Hacıyev Hacıməhəmməd Sabir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əsgərov Hacı Yəhya oğlu, Allahverdiyev Abdulla Cumakərim oğlu, İmaməliyev İmaməli Cami oğlu, Rəşidli Rauf Namik oğlu, Rəsulov Asəf Hacı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Həbilov Elbrus Məhəmmədrasul oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əsgərov Hacı Yəhya oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 fevral 2016-cı il**

**Qax rayonu Qaysarlı kənd**
**"Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 01 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 270**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov Sənan Knyaz oğlu, Novruzov Müzəffər Şaban oğlu, Mustafayev Kərim Molla oğlu, Həşimov Şakir Məhəmməd oğlu, Nəzərxanov Kiçikoğlan Qulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Məmmədov Nəzir Xurşud oğlu, Qurbanov Aydın Alı oğlu, Davudov Vaqif Məmmədəli oğlu, Abdullayev İsmət Allahverən oğlu, Qasımov Qəhrəman Qurban oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Qasımov Sənan Knyaz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Məmmədov Nəzir Xurşud oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 fevral 2016-cı il**

**Quba rayonu Səbətlər kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 03 fevral 2015-ci il**
**Qeydiyyat №-si: 100115A1 – 572**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Sultanov Nuru Məhərrəm oğlu, Əsədov Mustafa Abdulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Dadaşova Qıztamam Nəsrəddin qızı, Eldarova Solmaz Əzizağa qızı, Əmirov Cavid Xalid oğlu, Sultanov Vüqar Bəxtiyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 fevral 2016-cı il**

**Neftçala rayonu Kürkənd kənd**
**"İmam Rza" məscidi dini icması**
**Qeydiyyat tarixi: 05 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 53**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Məzahir Cəfər oğlu, Novruzov Akif Mirzağa oğlu, İsmayılov Tahir Şəkər oğlu, Abdullayev Saleh Səxavət oğlu, Tağıyeva Nəsibə Ələkbər qızı, Məhərrəmov Güləhməd Tofiq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Cəfərov Cəfər Qəfər oğlu, Əliyev Elvin Vahid oğlu, Əzizov Tofiq Baba oğlu, Mustafayev Əmrah Əbilfəz oğlu, Nağıyeva Minayə Teymur qızı, Cəfərova Zinət Hüseyn qızı, Düniyeva Zülfiyyə Mirzəbala qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Cəfərov Məzahir Cəfər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Cəfərov Cəfər Qəfər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2016-cı il**

**Zaqatala rayonu Yolayrıc kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 11 avqust 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 475**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Buraqov Şəmsəddin Abdusalam oğlu, Buşdiyev Əli Əli oğlu, Məmmədov Əhməd Zumrat oğlu, Buraqov Ömərxan Məmməd oğlu, Diniyev Mahmudəfəndi Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Eminov Yunus Musa oğlu, Ömərov Şamil Şahabuddin oğlu, Diqayev Bilal Abdulmütəllib oğlu, Mehdiyev Əhməd Salah oğlu, Amaçov Kamil Şəmsəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Malcanov Əhməd İsmail oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Eminov Yunus Musa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2016-cı il**

**Zərdab rayonu Aşağı Seyidlər kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 26**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Sadıqov Yusif Veysəl oğlu, Nağıyev Ədil Seyid oğlu, Behbudov Məhəmmədəli Nürəddin oğlu, Xəlilov Vüsal Bəhruz oğlu, Hüseynov Ata Baxış oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Lətifov Rafiq Məhəmməd oğlu, Nağıyev İkram Yusif oğlu, Hüseynov Şirin Hüseyn oğlu, Alxasov Kamran Ədalət oğlu, Xəlilov Eldəniz Bayram oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Xəlilov Qəhrəman Məmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Xəlilov Fərəc Əzim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2016-cı il**

## LƏĞV OLUNMUŞ DİNİ İCMALAR

**Binəqədi "Came" məscidi dini icması**
**Qeydiyyat tarixi: 28.11.1994-cü il**
**Qeydiyyat №-si: 70**

Binəqədi "Came" məscidi dini icması təsisçilərinin 15.12.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 15 fevral 2016-cı il**

**Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi 2 saylı sovxozun "İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.11.2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 - 05**

Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi 2 saylı sovxozun "İmam Hüseyn" məscidi dini icması təsisçilərinin 02.02.2016-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 19 fevral 2016-cı il**

*Oğuz rayonu Kərimli kənd məscidi dini icması 21.01.2016 tarixli, 01 №-li protokoluna əsasən ləğv olunması barədə qərar qəbul etmişdir və fəaliyyətini dayandırmışdır.*

*Göyçay rayonu Çərəcə kəndində yaradılan dini icma təsisçilərinin 17.02.2016-cı il tarixli, 02 saylı protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.*

Cəmiyyət və Din
№ 02 (295) / FEVRAL 2016-cı il

# Dövlət Komitəsi müsabiqə elan edir

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin 93 illik yubileyi münasibətilə "Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında" mövzusunda məqalə müsabiqəsi elan edir.

Müsabiqəyə ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant mühit, o cümlədən əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məqalələr göndərilə bilər. Həmçinin müasir dövrdə ölkəmizdə müxtəlif dinlərin və dini konfessiyaların nümayəndələrinin birgəyaşayış mədəniyyətini, bu sahədəki Azərbaycan təcrübəsinin dinlərarası və məzhəblərarası münasibətlərə verə biləcəyi töhfələrdən bəhs edən məqalələr də qəbul olunur.

**KRİTERİYALAR**

- Məqalə innovativ və əhatəli olmalıdır;
- Müsabiqə elan olunduqdan sonra qəzet və ya elektron internet portallarında dərc edilməlidir;
- Məqalənin həcmi səkkiz min işarədən artıq olmamalıdır. (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Yazılar qəzetdə dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır;
- Elektron portalda dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) çap olunmalı və link əlavə edilərək Dövlət Komitəsinə təqdim edilməlidir.

**MÜKAFAT**

**I yer – 500 AZN  II yer – 400 AZN  III yer – 300 AZN**

**Hər biri 100 AZN olmaqla üç həvəsləndirici mükafat.**

Müsabiqənin müddəti: **3 mart – 20 aprel 2016-ci il**

**Əlaqə telefonları: (012) 437 31 15 / (012) 492 65 23**
**E-mail: scwra.2001@gmail.com / Ünvan: Bakı şəhəri, Əhməd Cavad 12**

# Dağıstanlı gözdən əlil gənc Dövlət Komitəsinin sədrinə təşəkkür etdi



Dağıstanın paytaxtı Mahaçqala şəhər sakini, 25 yaşlı Hacımurad Məhəmmədrəsulov Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə minnətdarlığını bildirib. Rusiya mətbuatına verdiyi müsahibədə deyib ki, anadangəlmə gözdən əlil olmasına baxmayaraq, uşaq yaşından babasından İslamı öyrənib. O qeyd edib ki, sonradan anası ilə birgə Moskvaya köçüb, orada əlillər üçün internatda təhsil alıb, təhsilini uğurla başa vurduqdan sonra Moskva İdman Universitetinə daxil olub. Universiteti bitirdikdən sonra Qroznıda Quranın Brayl metoduyla öyrənilməsi kurslarında oxuyub.

İki dəfə Quran hafizlərinin ümumrusiya yarışmasında birinci yer tutan Hacımurad Mahaçqalada gözdən əlillərə Quran oxumağı öyrədən Brayl kursları açmağa qərar verib. Brayl şrifti ilə yazılmış hər biri 7 cilddən ibarət 5 Quran komplektini əldə etdiyini deyən H.Məhəmmədrəsulov bu vəsaitləri Bakıdan gətirən Dağıstan müftisinin müavini Şahabuddin Hacıkərimova və bu işdə ona yardım göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya dərin təşəkkürünü bildirib.

## Yadigar söz

**Bertran Rassel**
*(ingilis filosofu, ictimai xadim)*

Çətinliklər sizə özünüz haqqında bilmədiklərinizi kəşf etməyə imkan verir.

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 mart | 05:55 | 07:15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 mart | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 mart | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 mart | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 mart | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 mart | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 mart | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 8 mart | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 mart | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 mart | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 mart | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 mart | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 mart | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 mart | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 mart | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 mart | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 mart | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 mart | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 mart | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 mart | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 mart | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 mart | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 mart | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 mart | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 mart | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 mart | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 mart | 06:12 | 07:33 | 13:46 | 18:10 | 20:13 | 21:15 |
| 28 mart | 06:10 | 07:32 | 13:46 | 18:11 | 20:14 | 21:16 |
| 29 mart | 06:09 | 07:30 | 13:46 | 18:11 | 20:15 | 21:18 |
| 30 mart | 06:07 | 07:29 | 13:45 | 18:12 | 20:17 | 21:19 |
| 31 mart | 06:05 | 07:27 | 13:45 | 18:13 | 20:18 | 21:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## DAŞLAŞMIŞ KƏDƏR




Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894